GÜNDOĞAR

14 sentyabr 2020-ci il № 1 7 - 1 8 (6744)

İCTİMAİ-SİYASİ QƏZET

Qəzet 1931-ci ildən çıxır. e-mail: gundogarqazeti@box.az

Təsisçilər: Neftçala Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi

ƏBƏDİYAŞAR AZƏRBAYCAN-TÜRKİYƏ DOSTLUĞU BU GÜN DAHA GÜCLÜDÜR

Azərbaycan müstəqilliyinə nail olduqdan sonra türk dövlətləri ilə əlaqələr bütün sahələrdə inkişaf etdirilərək möhkəmləndirilməyə başladı. Onların arasında qardaş Türkiyənin öz yeri vardır. Bu heç də təsadüfi deyildi. Türkiyə, Türkiyə dövləti öz qardaşlıq sədaqətini Azərbaycanın ən çətin dövründə — 1918-ci ildə sübut etmişdi. 1917-ci ildə hərbi çevriliş nəticəsində Rusiya Birinci Dünya Müharibəsindən çıxdıqdan sonra Şərqi Anadoluda cəllad qəddarlığı ilə soyqırımlar törədən erməni daşnakları indi də qırğınlar üçün Azərbaycan Respublikasının ərazisini seçmişdilər. Bakıdakı sovet hakimiyyəti bolşeviklərlə, erməni daşnakları ilə birləşərək soydaşlarımıza qarşı ağılagəlməz qanlı qırğınlar törədirdilər. Məhz belə bir vaxtda Nuru paşanın rəhbərliyi altında Qafqaz İslam Ordusu xilaskarlıq missiyasını yerinə yetirmək üçün Azərbaycana gələrək Bakını erməni quldur dəstələrindən xilas etmişdi.

Bu, doğrudan da bir nümunə idi. Qardaşlığın, dostluğun, sədaqətin nümunəsi. Aradan bir əsrdən çox vaxt keçib. Biz çox sevinirik ki, bu dostluq, qardaşlıq dünən necə idisə bu gün də elədir. Türkiyənin Tovuz döyüşlərində Azərbaycanı ilk və birmənalı olaraq qətiyyətlə dəstəkləməsi dostluğumuzun, qardaşlığımızın sarsılmaz olduğunu bir daha bütün dünyaya açıq şəkildə nümayiş etdirdi. Bu ilin avqustunda türk nümayəndə heyətini qəbul edərkən Prezident İlham Əliyevin dediyi "Bu gün dünyada Türkiyə və Azərbaycan qədər bir-birinə bağlı olan ölkələr yoxdur" sözləri dediklərimizin təsdiqidir, qürurvericidir. Biz sevincli, xoş günlərimizdə olduğu kimi, çətin, ağır günlərimizdə də Türkiyəni, türk qardaşlarımızı yanımızda görmüşük. Şübhəsiz, bundan sonra da belə olacaq. Ona görə ki, soyumuz, kökümüz eynidir. Ulu öndər Heydər Əliyevin dediyi kimi, biz iki dövlət olsaq da, bir millətik. Millət isə həmişə bütöv olur, parçalanmır.

Türkiyə ilə əlaqələrimiz, münasibətlərimiz çoxşaxəli olsa da, hərbi əməkdaşlığımız xüçusilə diqqəti cəlb edir. Müdafiə sahəsində uzun illərdən bəri davam edən əməkdaşlıq bu gün daha da genişlənməkdə, güclənməkdədir. Ölkəmizin Silahlı Qüvvələrinin NATO-nun standartlarına uyğunlaşdırılması, müdafiə sənayesi kompleksinin inkişaf edərək müasirləşməsi üçün ardıcıl səylər göstərilir. Bu birlik həm də bölgədə sülhün qorunub saxlanılması baxımından çox əhəmiyyətlidir.

Qardaş Türkiyə ilə hərbi əməkdaşlığın genişləndirilməsində hər il keçirilən birgə təlimlərin özünəməxsus yeri, rolu var. NATO-nun üzvü olan Türkiyə çox güclü orduya malikdir. Bunu bütün bünya liderləri, tanınmış hərbi ekspertlər də təsdiqləyir. Belə təlimlər zamanı onlardan öyrənmək Azərbaycan Ordusunu, Azərbaycan əsgərini də zənginləşdirir, təcrübəsini artırır, ən müasir döyüş üsullarına yiyəənmələrinə çox güclü təsir göstərir.

Bu yaxınlarda Azərbaycanda keçirilən birgə təlimlər öz miqyasına görə xüsusilə geniş idi. Avqustun 13-də Türkiyə Milli Müdafiə naziri Hulusi Akarı, Türkiyənin Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Yaşar Güleri və qoşun növləri komandanlarını qəbul edən dövlətimizin başçısı cənab İlham Əliyev təlimlərin intensivliyinin bundan sonra daha artacağını bəyan edərək demişdir: "Bu təlimlərin uğurla keçirilməsi, əlbəttə, hesab edirəm ki, çox önəmli hadisədir. Bu təlimlər gələcəkdə də davam edəcək... Təbii ki, buna ehtiyac var".

Təcavüzkar Ermənistanın siyasi hərbi dairələrində ciddi narahatçılığın, təlaşın yaranması da birgə təlimlərin miqyasının əvvəlki illərlə müqayisədə xeyli dərəcədə geniş olmasında idi. Hər iki ölkənin ordularının şəxsi heyətinin, zirehli texnikasının, artilleriya qurğularının və minaatanların, habelə hərbi aviasiya və hava hücumundan müdafiə vasitələrinin, quru qoşunlarının da cəlb edilməklə birgə təlimlərin Bakıda və Naxçıvanda, hərbi aviasiya vasitələrinin iştirakı ilə isə Bakı, Naxçıvan, Gəncə, Kürdəmir və Yevlax şəhərlərində keçirilməsi gücümüzü bir daha əyani şəkildə göstərdi. Erməniləri təşvişə salan da aramızdakı bu birlik, gündən-günə genişlənən, möhkəmlənən bu güc idi. Prezident İlham Əliyev haqlı olaraq görüş zamanı dedi: "Azərbaycan tək deyil. Bunu hər kəs bilsin. Biz bərabərik, birik, bir millətik. Biz sülhün, sabitliyin tərəfdarıyıq. Təkcə ölkəmizin təhlükəsizliyi, əmin-amanlığı mənasında deyil, bütün Qafqazın, bütün bölgənin sülh və əmin-amanlıq içərisində olmasının tərəfdarıyıq."

Ermənilər isə, əksinə, özgə torpaqlarını işğal etməklə böyük Ermənistan yaratmaq xülyası ilə yaşayırlar. Bu isə heç zaman baş tutmayacaq. Onlar gec-tez işğal etdikləri torpaqlarımızı qaytaracaqlar. Ona görə ki, haqq bizim tərəfimizdədir. Bunu nəzərə alaraq qardaş Türkiyə Dağlıq Qarabağ məsələsində ilk gündən bu haqqı müdafiə edir. İşğalçı Ermənistanla heç bir siyasi-diplomatik münasibətlər qurmur. Bu dostluğun, qardaşlığın qorunub saxlanılmasında, möhkəmləndirilməsində isə Prezident İlham Əliyevin özünəməxsus rolu var. Bunu dəyərləndirməmək mümkün deyil.

Tükəzban HƏSƏNOVA,
Azərbaycan Jurnalistlər Birliyinin üzvü, müəllim

MƏRHƏMƏT, ŞƏFQƏT NÜMUNƏSİ

Min illərdən bəri bizə dayaq olan mənəvi dəyərlərimizin dəyərdən düşdüyü, haqsızlıqların, ədalətsizliklərin baş alıb getdiyi, maddiyatın mənəviyyatı üstələdiyi bir vaxtda insanlara, insanlığa dayaq olmaq, yıxılanın qolundan tutmaq, xoş gündə də, dar gündə də xalqının, millətinin yanında olmaq, gül üzlü balaları sevmək, onların qayğıları ilə yaşamaq yalnız böyük ürək sahiblərinin işidir, onlara nəsib olur. Ölkəmizin birinci xanımı Mehriban Əliyeva məhz bu nəcib keyfiyyətləri özündə birləşdirdiyindən xalqımız tərəfindən sevilərək dəyərləndirilir, haqqında həmişə xoş sözlər söylənilir, ünvanına minnətdarlıq duyğuları ifadə olunur.

Bütün bunlar həm də ulu öndərin adını daşıyan Heydər Əliyev Fondunun məqsədi, məramı, qayəsidir. Fond öz xeyirxah işlərilə dahi insanın adına layiq olduğunu həmişə sübut edib və yəqin bundan sonra da bu nəcib amallara, ideallara sadiq qalacaq. Əlbəttə, Mehriban xanımın yüksək təşkilatçılığı, həyata keçirdiyi genişmiqyaslı tədbirləri, layihələri sayəsində.

Çətin dövrlərdə həmişə köməksizlərin, imkansızların yanında olan Heydər Əliyev Fondu koronavirus pandemiyasının narahatlıqlarla dolu günlərində də ənənəsinə sadiq qalaraq belə insanları tək qoymadı. Fond tərəfindən edilən köməkliklər, respublikanın bütün rayonlarına, regionlarına göndərilən ərzaq bağlamaları digər təşkilatlar, qurumlar üçün də bir nümunə oldu. Rayonumuzdakı yüzlərlə aztəminatlı ailələr, imkansız şəxslər, ahıl insanlar bir daha inandılar, əmin oldular ki, onlar unudulmayıblar, tək deyillər. Mələk timsalında olan Mehriban xanım həmişə onların yanındadır. Göndərilən yardımların kampaniya xarakteri daşımaması, daimi olması göstərilən köməyin qiymətini, dəyərini qatqat artırır.

Heydər Əliyev Fondunun həyata keçirdiyi layihələrin qayəsində bir millilik, vətənpərvərlik də var. Təkcə "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi çərçivəsində görülən işləri göz önünə gətirəndə adam doğrudan da qürurlanır. Bu xətlə ölkəmizdə minlərlə məktəb, uşaq bağçası, körpələr evi tikilərək işıqlı gələcəyimiz olan balalarımızın ixtiyarına verilib. Belə təhsil ocaqlarından rayonumuzda da az deyil. Ən qədim təhsil ocağımız olan Xıllı qəsəbə 1 saylı tam orta məktəbinin dünəni adamda yalnız təəssüf hissi doğururdu. Uzun illərdən bəri heç vaxt təmir olunmayan məktəbi bu gün tanımaq olmur. Əsaslı təmirdən sonra burada şagirdlərin yaxşı təhsil almaları, sağlamlıqları, asudə vaxtlarını səmərəli keçirmələri üçün hər cür şərait yaradılıb. Bütün bunlara görə necə minnətdar olmayasan, ürəkdən sağ ol deməyəsən Mehriban xanıma?! "Diabetli uşaqlara ən yüksək qayğı", "Talassemiyasız həyat naminə" layihələrini və sağlamlığımıza xidmət edən digər layihələrlə bağlı görülən işləri göz önünə gətirəndə, xəstəliklərin əzabından xilas olan uşaqların sevincini, fərəhini görəndə fondun, Mehriban xanımın xeyirxahlığı, nəcibliyi qarşısında bir daha baş əymək istəyirsən. Fondun vəsaiti hesabına çap olunan "Qarabağ xanəndələri", "Qarabağ həqiqətləri" kitabları və çoxlu sayda çap nümunələri bu qədim diyarımızın dünyada tanıdılmasında az rol oynamamışdır. Bərpa olunan çoxlu sayda tarixi və mədəniyyət abidələrimiz, müqəddəs ziyarətgahlarımız xalqımız, millətimiz üçün çox dəyərli, qiymətli ərməğandır. Bütün bunlar biz mədəniyyət işçilərini də ürəkdən sevindirir.

Mehriban xanımın, fondun gördüyü işlər, həyata keçirdiyi tədbirlər təkcə ölkəmizdə görülənlərlə məhdudlaşmır. Bu şəfqətli xanım UNESKO və İSESKO-nun xoşməramlı səfirləri kimi də dünyada özünə layiq iz qoyub. Fransadakı, Vatikandakı, Pakistandakı və bir çox başqa ölkələrdəki tarixi abidələrin bərpası, uşaqlara göstərilən kömək və digər bu kimi işlər təkcə Mehriban xanımın yox, doğma Azərbaycanımızın, Azərbaycan xalqının xoş məramını, niyyətini bütün dünyada tanıdır, nümayiş etdirir.

Mehriban Əliyevanın yüksək təşkilatçılığı Birinci Avropa Oyunlarında özünü xüsusilə qabarıq şəkildə göstərdi. Avropada ilk dəfə keçirilən belə möhtəşəm idman tədbirinin Azərbaycana, Azərbaycanda isə Təşkilat Komitəsinin rəhbəri kimi Mehriban xanıma etibar olunması heç də təsadüfi deyildi. Azərbaycan da, Mehriban xanım da dünyaya özlərinin töhfələrini vermişdilər. Oyunlara hazırlığın yüksək səviyyədə təşkili, təntənəli açılış və bağlanış mərasimlərindəki özünəməxsus yeniliklər, dünyaya verilən mesajlar Mehriban xanımın nəyə qadir olduğunu bir daha əyani şəkildə ortaya qoydu. Haqlı olaraq dövlətimizin başçısı cənab İlham Əliyev, "Canını qoymadan, vətənini ürəkdən sevmədən, ona qəlbən bağlı olmadan, təəssübünü çəkmədən oyunları bu səviyyədə keçirməyin mümkünsüzlüyünü" dilə gətirərək ölkəmizin ən ali dövlət mükafatını — "Heydər Əliyev" ordenini tamaşaçıların sürəkli alqışları altında Mehriban xanım Əliyevaya təqdim etmişdi.

Şübhəsiz ki, belə yüksək təşkilatçılıq, dövlətə, dövlətçiliyə sədaqət, qazanılan böyük xalq məhəbbəti diqqətdən yayına, kənarda qala bilməzdi. Prezident İlham Əliyev ölkənin ən məsul vəzifəsini — Azərbaycanın Birinci vitse-prezidenti vəzifəsini Mehriban xanıma etibar edəndə də onun bu yüksək keyfiyyətlərini, xalqı, Vətəni qarşısındakı misilsiz xidmətlərini nəzərə almışdı. Bu və ya digər səbəbdən yüksək vəzifəyə təyin olunmaq olar. Əsas məsələ onu ləyaqətlə daşımaq, göstərilən inamı, etimadı doğrultmaqdır. Mehriban xanım təkcə bu inamı doğrultmadı, yeni-yeni keyfiyyətlərini, bacarıqlarını, fikirlərini ortaya qoydu. Böyük şairimiz İmadəddin Nəsiminin 650 illik yubileyi münasitbətilə ölkəmizdə 650 min ağacın əkilməsi təşəbbüsü ekoloji tarazlığın pozulduğu bir dövrdə dünyanın sağlamlaşdırılmasına, ətraf mühitin qorunmasına bir mesaj idi. Bunu beynəlxalq ictimaiyyət də yetərincə dəyərləndirdi.

Birinci vitse-prezident kimi Mehriban xanım Əliyevanın gördüyü işlər onun illərdən bəri başladığı məqsədyönlü fəaliyyətinin uğurlu davamıdır. Yəqin bu fəaliyyət bundan sonra da davam edəcək, davam etdikcə də xalqımız bunlardan faydalanacaq, Vətənimiz inkişaf edəcək, dövlətimiz daha da güclənəcəkdir. İllər, on illər ərzində Mehriban xanımın dünyanın ən ali mükafatlarına layiq görülməsi onun çoxcəhətli əməyinə, fəaliyyətinə verilən yüksək qiymətdir. Təkcə birindən başqa. 2007-ciildə aldığı "Qızıl ürək" beynəlxalq mükafatı isə Mehriban xanımın qızıl kimi urəyinə verilən qızıl dəyərdir. Özü də dünyanın dəyəri.

Gülnarə QASIMOVA,
Neftçala MKS-nin direktoru

"COVİD-19"-a qarşı mübarizə davam edir

Koronavirus pandemiyası ilə əlaqədar ölkəmizdə, o cümlədən rayonumuzda tətbiq olunan ciddi karantin tədbirlərinin çətinliklərinə baxmayaraq qoyulmuş qaydalara müvafiq işlər davam edir. Pandemiya ilə əlaqədar rayon icra hakimiyyəti yanında fəaliyyət göstərən Monitorinq Komissiyası sistemli şəkildə aparılan maarifləndirici tədbirlərini durmadan genişləndirməkdədir.

Nazirlər Kabineti yanında Operativ Qərargahın qərarlarını əldə rəhbər tutan komissiya üzvləri rayon polis şöbəsinin əməkdaşları ilə birlikdə kiçik mobil qruplara bölünərək ölkədə elan edilmiş karantin qaydalarına riayət edilməsi istiqamətində nəzarət tədbirləri aparır, maska və əlcəkdən istifadə etməyən satıcılarla, müştərilərlə, sürücü və sərnişinlərlə, digər rayon sakinləri ilə söhbətlər aparır, virusun qapalı məkanlarda daha tez yayılmasını, belə yerlərdə qaydalara diqqət yetirməyin vacibliyini onların diqqətinə çatdırırlar. Bildirirlər ki, hər bir şəxs qoyulmuş karantin qaydalarına, koronavirusun profilaktikasına dair Nazirlər Kabinetinin qərarı ilə təsdiqlənmiş metodiki göstərişlərə əməl etməlidir. Reyd və yoxlamalar zamanı aşkara çıxarılan nöqsan və çatışmazlıqlarla bağlı müxtəlif cərimələrin, cəza tədbirlərinin görülməsilə yanaşı, həm də vətəndaşlarla geniş şəkildə maarifləndirici söhbətlər aparılaraq qoyulmuş qaydalar, bu qaydalardan irəli gələn vəzifələr onlara hərtərəfli izah olunur.

Belə söhbətlər zamanı xüsusilə Prezident İlham Əliyevin imzaladığı fərman və sərəncamların, dövlət başçısının apardığı uğurlu daxili və xarici siyasətin, koronavirus pandemiyasının başladığı ilk gündən həyata keçirilən qabaqlayıcı tədbirlərin, gördüyü fundamental işlərin yalnız xalqın rifahına, onun sağlamlığının, təhlükəsizliyinin qorunmasına hesablandığı rayon sakinlərinə hərtərəfli izah olunur. Qeyd edilir ki, bu gün respublikamız dünyanın və Avropanın yüksək inkişaf etmiş ölkələrilə müqayisədə pandemiyadan ən az ziyan çəkən ölkə olmasına baxmayaraq mübarizə işləri uğurla davam etdirilir, lazımi ehtiyat tədbirləri görülür.

Onu da deyək ki, bütün bu işlər, tədbirlər rayon icra hakimiyyətinin başçısı hörmətli Mirhəsən Seyidovun rəhbərliyi altında həyata keçirilir. Rayon rəhbərinin başçılıq etdiyi mobil qrupda rayon polis şöbəsinin rəisi, polis polkovniki Vüsal Şəbəndəyev, rayon prokuroru Nəsif Nəcəfov, DTX rayon şöbəsinin rəisi Anar Rüstəmov, rayon məhkəməsinin sədri Xanlar Fərhadov və rayonun digər məsul şəxsləri həmişə fəal iştirak edir, insanları qanuna zidd hərəkətlərdən çəkinməyə çağırırlar.

Nəhayət ki, Kür çayında su şirinləşdi

Xeyli vaxtdan bəri idi ki, rayonumuzda su məsələsi başlıca problemlərdən birinə çevrilmişdi. Xəzərin suyunun Kür çayına qarışaraq onu şorlaşdırması nəticəsində ilk günlər Neftçala şəhərində, şəhərətrafı ərazilərdə, Bankə və Həsənabad qəsəbələrində, Kürboyu yaşayış məntəqələrində şirin su qıtlığı yaşansa da, rayon rəhbərinin respublikanın aidiyyəti qurumları qarşısında qaldırdığı məsələlər öz müsbət təsirini göstərdi. Çox keçmədi həmin təşkilatların, qurumların xüsusi təyinatlı maşınları rayonumuza sistemli şəkildə su gətirməyə başladılar.

Prezident İlham Əliyevin yanında su təsərrüfatının vəziyyətinə həsr olunmuş video formatdakı müşavirədən sonra bu məsələ xüsusilə aktuallaşdı. Rayon rəhbərliyi əhalinin içməli suya olan tələbatının daha dolğun ödənilməsi üçün əlavə tədbirlər görməyə başladı. Mövcud karantin qaydalarına uyğun su təminatına cavabdeh şəxslərlə məsələ müntəzəm müzakirə olunaraq lazımi tapşırıqlar verildi, çatışmazlıqların aradan qaldırılması üçün tədbirlər görüldü. İnzibati ərazi vahidlərində yerləşən modul tipli sutəmitzləyici qurğuların vəziyyətinin dərindən araşdırılması, rayon ərazisində yerləşdirilən çənlərin vaxtaşırı doldurulması, fəaliyyətdə olan sudaşıyan texnikaların qrafiklərinin ciddi nəzarətdə saxlanılması, "Qaynar xətt"ə daxil olan vətəndaş müraciətlərinə daha operativ reaksiyaların verilməsi, rayon ərazisinə daşınan suyun həcminin hər vasitə ilə artırılması, problemin əhatə etdiyi şəhər ərazisində, bütün qəsəbə və kəndlərdə nəzarətin daha da gücləndirilməsi operativ qərargahın üzvlərinin qarşısına qoyulan ciddi tələblər idi.

Görülən işlər, həyata keçirilən tədbirlər nəhayət ki, öz bəhrəsini verib. Bunun üçün təbiət də öz mərhəmətini əsirgəməyib. Yağan güclü yağışlar da bu işdə az rol oynamayıb. Kür çayında səviyyənin qalxması, suyun şirinləşməsi bütün neftçalalıları ürəkdən sevindirib. Artıq neçə gündür evlərə normal su vurulur. Adamlar suya olan ehtiyaclarını kifayət qədər ödəyə bilirlər. Bununla yanaşı yeni layihəyə uyğun olaraq Salyandan Neftçalaya çəkilən 44 kilometr uzunluğundakı magistral boru xəttinin inşasında işlər intensiv şəkildə davam edir. Rayon sakinləri əmindirlər ki, "Azərsu" rəhbərliyinin dövlət başçısına verdiyi vaxtda — noyabr ayında daha keyfiyyətli, daha təmiz sudan istifadə edə biləcəklər. Onun üçün rayon rəhbərliyi də əlindən gələni əsirgəmir. Su qıtlığı hiss olunan yerlərdə yenə də maşınlarla su daşınır, adamların su sarıdan korluq çəkməsinə yol verilmir.

Pambıq yığımı başlandı

Ölkəmizdə aqrar sektorun, xüsusilə pambıqçılığın dinamik inkişafı ilə bağlı qarşıya qoyulan vəzifələr rayonumuzda da uğurla həyata keçirilməkdədir. Ötən il neftçalalı pambıqçılar 5 min 88 hektar sahədən 16 min tondan çox məhsul toplayaraq respublikamızda birincilər sırasında olmuşdular. "Ağ qızıl" istehsalçıları bu il də səylə çalışıblar. Çətinlik və problemlərə, xüsusilə rayonda yaşanan su qıtlığına baxmayaraq onlar bu il məhsul istehsalını 18 min tona çatdırmağı qarşılarına məqsəd qoymuşlar.

Ümumilikdə bu il rayonda 5972 hektar sahədə pambıq əkilib. 1307 məhsul istehsalçısı müəssisələrlə müqavilə bağlayaraq lazımi texnika, toxum və digər avadanlıqlarla təmin olunub. Əsasən "Bəyaz Altun", "Karlo Karizma", "Gəncə 100", "Gəncə 114" kimi yüksək reproduksiyalı sortlar əkən "ağ qızıl" ustaları ziyanvericilərə qarşı mübarizə ilə bərabər, becərmə tədbirlərini də ardıcıllıqla davam etdirərək bol məhsul üçün yaxşı zəmin yaratmışlar.

Artıq pambıqçılıqda ən məsul dövr — yığım dövrü başlayır. Tədarük müəssisələri, fermerlər, torpaq mülkiyyətçiləri yığım üçün lazım olan bütün tədbirləri də görüblər. Kifayət qədər texnika alınıb, təmirə ehtiyacı olanlar saz hala gətirilib, nəqliyyat vasitələri, yollar, xırmanlar qaydaya salınıb. Bütövlükdə rayon məhsul toplanışına hazırdır. İndi qalır bu məsul kampaniyanı vaxtında və itkisiz başa çatdırmaq. Ona görə bu gün kənddə bütün qüvvələr əsasən bu istiqamətə yönəldilib.

Belə məsul bir vaxtda rayon icra hakimiyyətinin başçısı hörmətli Mirhəsən Seyidovun karantin qaydalarının tələblərinə uyğun Boyat kənd inzibati ərazisinə gələrək burada fermerlərlə, pambıqçılarla görüşərək səmimi söhbət etməsi, qayğı və problemləri ilə yaxından maraqlanması onlara yeni stimul vermiş, kənd əməkçilərinin əhvali-ruhiyyəsini xeyli dərəcədə yüksəltmişdir.

Bu qayğılı günlərdə biz də sizə uğur arzulayırıq, əziz kənd əməkçiləri! Məhsulunuz bol, işiniz avand olsun.

Yeni dərs iliniz mübarək!

Qəzetimizin ötən sayında rayon təhsil şöbəsinin müdiri Vüqar Dadaşov "Pandemiyanın çətinliklərinə baxmayaraq..." sərlövhəli məqaləsində görülən işlərdən, həyata keçirilən tədbirlərdən söhbət açaraq əldə olunan nəticələrə, uğurlara geniş aydınlıq gətirmişdi. İndi isə yeni dərs ili başlayır. Bununla əlaqədar Nazirlər Kabineti yanında fəaliyyət göstərən Operativ Qərargah karantin qaydalarına uyğun olaraq yeni qaydalar müəyyənləşdirib, şagirdlər və ali məktəb tələbələri təhsillərini bu qaydalar əsasında davam etdirəcəklər.

Bu il rayonumuzun ümumtəhsil məktəblərini bitirən onbirincilər əvvəlki illərdən fərqli olaraq həm buraxılış, həm də qəbul imtahanlarında iştirak etdilər. Onlardan 24 nəfəri 500-dən,3 nəfəri isə 600-dən çox bal toplayaraq layiqli uğurlara imza atmışlar. Pandemiya dövrünün çətinlikləri şəraitində digər orta məktəb məzunları da müsbət göstəricilərə nail olmuşlar. İxtisas seçimi başa çatdıqdan sonra onların hansı ali məktəblərdə təhsillərini davam etdirəcəklərinə aydınlıq gələcəkdir.

Bu il rayonumuzun ümumtəhsi müəssisələrində 10800-dən çox şagird təhsil alacaqdır. İlk dəfə siniflərə qədəm qoyacaq birincilərin sayı isə 1015 nəfərdir. Onların təlim-tərbiyəsi ilə 1200 nəfərə yaxın müəllim məşğul olacaqdır.

Sentyabrın 9-da rayon icra hakimiyyətinin başçısı hörmətli Mirhəsən Seyidov onlayn qaydada ali məktəblərə bu ilki qəbul imtahanlarında fərqlənərək yüksək bal toplamış məzunları təbrik edərək onlara qarşıdakı təhsil illərində daha böyük uğurlar arzulamış, qayğıları ilə maraqlanmışdır.



Rayon təhsil şöbəsinin müdiri Vüqar Dadaşov gənc nəslə göstərdiyi qayğı və diqqətə görə rayon rəhbərinə səmimi təşəkkürünü bildirmişdir.

Yeni dərs iliniz mübarək, əziz müəllimlər və şagirdlər!

Rayon icra hakimiyyətinin başçısı cənab Mirhəsən Seyidovun Neftçaladakı fəaliyyətinin altı ayı tamam olur

ÖTƏN BU AYLAR NƏ VERDİ BİZƏ, NƏLƏR GÖRÜLDÜ, NƏLƏR QALDI YADDAŞLARDA

Ucu-bucağı görünməyən, bilinməyən Böyük Zamanın saatı dayanmadan işləyir, daim irəli gedir. Onun ayı, ili yox, bəzən dəqiqəsi, saniyəsi də unudulmaz tarixə çevrilərək qalır yaddaşlarımızda. Nə vaxtsa dönüb arxaya baxanda, geriyə boylananda olub keçənləri, yaşananları daha aydın görürük, hiss edirik. Həmin günlərdə, aylarda, illərdə qurulanlar, yaradılanlar dünənimizin tarixidir, heç vaxt pozulmayacaq, həmişə qalacaq, xatırlanacaq tarixi.

Bəs koronavirus pandemiyasının ciddi çətinliklərinin, problemlərinin yaşandığı ötən yarım il neftçalalılar üçün hansı hadisələrlə, yeniliklərlə əlamətdardır? Necə qalıb bu tarix yaddaşımızda? Sizə təqdim etdiklərimizi xronoloji ardıcıllıqla izləsəniz yaxın tariximiz kino lenti kimi ötüb keçəcək gözlərinizin önündən.

***

Ötən ilin axırında Çinin Uhan şəhərində koronavirus infeksiyası aşkara çıxdıqdan və insanların kütləvi ölümü baş verdikdən sonra bu qorxulu bəlanın sürətlə yayılaraq dünyanı cənginə alması Azərbaycanda da təxirəsalınmaz ciddi tədbirlərin həyata keçirilməsini zərurətə çevirdi.

***

Şübhəsiz, ölkəmizin ayrılmaz parçası kimi Neftçala da bu problemlərdən kənarda qala bilməzdi. Rayon icra hakimiyyətinin başçısı hörmətli Mirhəsən Seyidovun sərəncamı ilə yaradılan Operativ Qərargah məsələni ilk gündən ciddi şəkildə nəzarətə götürərək bu istiqamətdə ardıcıl tədbirlər həyata keçirməyə başladı. Bu ağır günlərdə Koronavirusla Mübarizəyə Dəstək Fonduna yardım etmək üçün dövlət başçısı cənab İlham Əliyevin və Birinci-vitse prezident Mehriban xanım Əliyevanın çağırışına qoşularaq bu işdə rayonda ilk

nəfərlik işçi qrupu 68 gün ərzində 47 kənddə ümumiyyətlə 670, Neftçala şəhərində isə 442 obyektdə dezinfeksiya işləri aparmışdır. Həmin işlər zamanı çoxmənzilli yaşayış və qeyri-yaşayış binaları, ticarət və xidmət obyektləri, prospekt və küçələr, meydanlar, avtomobil dayanacaqları, parklar və xiyabanlar, sərnişindaşıma xidməti göstərən nəqliyyat vasitələri, ödəniş terminalları, bankomatlar, məktəblər, uşaq tərbiyə müəssisələri və digər vacib yerlər xüsusilə diqqət mərkəzində olmuşdur. Virus aşkarlanan xəstələrin dərhal karantinə alınması işləri həyata keçirilir, virusun yayılmaması məqsədilə rayon polis şöbəsinin, rayon gigiyena və epidemiologiya mərkəzinin, Neftçala Rayon Mərkəzi Xəstəxanası publik hüquqi şəxsinin əməkdaşlarının, inzibati ərazi dairələri üzrə nümayəndəliklərin birgə fəaliyyəti ilə zəruri təcrid və dezinfeksiya tədbirləri görülür və bu işlər ciddi nəzarətdə saxlanılır.

***

"COVİD-19" infeksiyasının yayılmasının qarşısının alınması ilə əlaqədar hamının evdə qalmağa çağırış edildiyi bir vaxtda insanlara, xüsusilə aztəminatlı ailələrə diqqət və qayğı da unudulmamışdır. Prezident İlham Əliyevin tapşırığına əsasən işləməyən şəxslərə 190 manat məbləğində dövlət yardımının ödənilməsi bu cəhətdən böyük əhəmiyyət kəsb etdi. Bununla yanaşı rayon icra hakimiyyəti, ayrı-ayrı təşkilatlar, iş adamları, imkanlı şəxslər də bu humanist aksiyalarda fəal iştirak etməklə aztəminatlı ailələrin təminatlarını xeyli dərəcədə yaxşılaşdırmışlar. Göstərilən bu yardımlar rayonun könüllülərinin, fəal gənclərinin köməyi ilə yubanmadan belə ailələrə, yaşlı, ahıl insanlara çatdırılmışdır. Yaxşı haldır ki, bu yardımlar hal-hazırda da davam edir. Heydər Əliyev Fondunun, Regional İnkişaf İctimai Birliyinin və digər təşkilatların əlamətdar və bayram günlərində göndərdikləri sovqatlar aztəminatlı ailələri ürəkdən sevindirir.

***

Ciddi karantin tədbirlərinin tətbiq olunduğu dövrdə respublikamızın hər yerində olduğu kimi rayonumuzda da vətəndaşların qəbulları onlayn qaydada həyata keçirilməyə başlanılmışdır. Rayon icra hakimiyyətinin başçısı tərəfindən keçirilən belə qəbullarda rayon sakinləri onları narahat edən bu və ya digər məsələlərlə bağlı müraciətlər etmiş, həmin müraciətlərin əksəriyyəti müsbət həll edilsə də, araşdırılması vaxt tələb edən məsələlər, problemlər nəzarətə götürülmüş, vətəndaşlara qanunamüvafiq qaydada əsaslandırılmış cavablar verilmişdir. Rayon icra hakimiyyəti adından ayrı-ayrı mərkəzi icra hakimiyyəti orqanlarına ünvanlanan məktublar bir sıra məsələlərin, problemlərin həllində çox mühüm rol oynamışdır.

***

Onlayn qəbullarla yanaşı rayon rəhbəri ehtiyac duyulanda karantin qaydalarını gözləməklə görülən işlərə, vətəndaşların müraciətlərinə bilavasitə yerlərdə baxışlar keçirmiş, vəziyyətlə yaxından tanış olmuş, ayrı-ayrı məsələlərin həlli ilə bağlı müvafiq məsul şəxslərə konkret tapşırıqlarını vermişdir. Boyat kənd inzibati ərazi dairəsində fermer Mürsəl Qafarovun əkin sahəsində, Kürqarabucaq kəndindəki fərdi balıqçılıq təsərrüfatında, Xıllı nərəbalıqartırma və Kür təcrübi balıqyetişdirmə zavodlarında, Neftçala Sənaye Məhəlləsində və Neftçala Avtomobil Zavodunda, Heydər Əliyev Fondunun vəsaiti hesabına əsaslı təmir edilən Xıllı qəsəbə 1 saylı tam orta məktəbində və digər yerlərdəki görüşlər bu cəhətdən yaddaqalandır. Bütün bunlar işlərin gedişini sürətləndirməklə yanaşı, vətəndaşlarla əlaqələrin və həmrəyliyin möhkəmlənməsinə, genişlənməsinə də öz müsbət təsirini göstərmiş olur.

***

Sərt karantin qaydalarının çətinliklərini yaşadığımız bir vaxtda Kür çayında suyun şorlaşaraq içmək üçün yararsız hala düşməsi rayonda gərgin olan vəziyyəti daha da mürəkkəbləşdirsə də, rayon rəhbərliyinin operativ müdaxiləsi bu dəfə də təsirsiz qalmadı. Rayon icra hakimiyyəti yanında yaradılan Operativ Qərargah vəziyyəti ilk gündən nəzarətə götürərək təxirəsalınmaz tədirlər həyata keçirməyə başladı. Rayon rəhbərinin yaranmış problemlə bağlı respublikanın əlaqədar qurumlarını hərəkətə gətirməsi tezliklə öz bəhrəsini verdi. "Azərsu" ASC-nin, Fövqəladə Hallar Nazirliyinin və digər qurumların xüsusi təyinatlı maşınları vasitəsilə Neftçala şəhərinə, şəhərətrafı yaşayış məntəqələrinə, ayrı-ayrı qəsəbə və kəndlərə içməli suyun daşınması qısa vaxtda təmin edildi. İyulun 23-də Prezident İlham Əliyevin yanında su təsərrüfatının vəziyyətinə həsr olunmuş video müşavirədən sonra rayonumuzdakı vəziyyətin xüsusi nəzarətə götürülməsi bu işə cavabdeh olan qurumların məsuliyyətini daha da artırdı.

Hazırda rayonda içməli su ilə bağlı heç bir problem yoxdur. Avqustun 1-dən etibarən ümumi tutumu 500 kubmetr olan 50-dən artıq sudaşıyan texnika vasitələri rayonu içməli su ilə tam təmin edir. Bununla əlaqədar rayon ərazisində ümumi tutumu 930 kubmetr olan plastik su çənləri quraşdırılmışdır. Akkuşa çayının nəzarətə götürülməsi burada suyun səviyyəsinin yüksəldilməsinə müsbət təsir göstərib. Əgər dövlət başçısının yanındakı onlayn müşavirədən əvvəl rayonun su təminatı 30-35 faiz arasında dəyişirdisə, sonradan bu rəqəm 60-70 faiz olmuşdur. Hazırda da rayon ərazisinə su daşınır. Bu da əhalinin içməli suya olan tələbatının daha dolğun ödənməsinə şərait yaradır.

***

Prezident İlham Əliyevin sərəncamı ilə ötən il Neftçalanın sukanalizasiya sisteminin yenidən qurulması üçün "Azərsu" ASC-yə 5 milyon manat vəsait ayrılsa da, bu sahədə heç bir irəliləyişin olmaması rayon rəhbərini narahat etməyə bilməzdi. Məhz hörmətli Mirhəsən Seyidovun işə qarışması, tələbkarlığı nəticəsində iyulun əvvəlində hazırlanmış yeni layihənin rayon icra hakimiyyətində təqdimatı keçirilmişdi. Layihədən aydın olmuşdur ki, Salyan rayonu ərazisində tutumu 7500 kubmetr olan su anbarı tikiləcək, həmin anbardan rayonumuza 44 kilometr uzunluğunda magistral su xətti çəkiləcəkdir. Layihənin təqdimatından az sonra rayon icra hakimiyyətinin başçısı Mirhəsən Seyidovun Salyan rayon icra hakimiyyətinin başçısı Sevindik Hətəmovla, "Azərsu" ASC-nin mütəxəssisləri ilə və digər məsul şəxslərlə birlikdə su anbarına baş çəkməsi, magistral su xəttinin tikintisinin gedişilə maraqlanması burada işlərin xeyli dərəcədə canlanmasına səbəb olsa da, dövlət başçısı cənab İlham Əliyevin yanındakı məlum müşavirədən sonra tikintidə işlər xüsusilə yeni vüsət almışdır. Artıq tikinti işlərinin 70 faizi yekunlaşmışdır. "Azərsu" ASC-nin sədri Qorxmaz Hüseynovun Prezident İlham Əliyevə verdiyi cavabdan aydın oldu ki, içməli su şəhərin özünə və şəhər şəbəkəsindən qidalanan qəsəbələrə bu ilin noyabr ayında daxil olacaq, onlar mövcud şəbəkəyə həmin vaxt bağlanacaqlar. İndi minlərlə neftçalalı verilən vədin tarixinin çatacağı günü səbirsizliklə gözləyir.

***

Neçə illərdən bəri tikilməkdə olan Neftçala Olimpya Mərkəzində son vaxtlar işlərin xeyli dərəcədə canlandırılması rayonumuzun sakinlərini, xüsusilə gəncləri, idmansevərləri ürəkdən sevindirir. Kompleksin istifadəyə verilməsi onlar üçün sözün əsl mənasında hədiyyə olacaqdır. Ona görə digər məsələlərlə yanaşı obyektdə işlərin sürətləndirilməsi, kompleksin yaxın zamanlarda istifadəyə verilməsi də rayon rəhbərinin diqqətindədir.

***

Əhalinin sağlamlığı, rahatlığı üçün çoxmərtəbəli yaşayış binalarının təmirinin diqqətdə olması da vacib məsələlərdəndir. Yanğın nəticəsində Heydər Əliyev prospektindəki 48 mənzilli 4 mərtəbəli evin dam örtüyünün tamamilə sıradan çıxması sakinləri böyük çətinlik qarşısında qoymuşdu. Şəhərin mərkəzindəki 5 mərtəbəli müəllimlər evinin üstündəki nasazlıqlar da burada yaşayanları narahat edən ciddi məsələ idi. Ötən aylar ərzində hər iki binanın üstünün təzələnməsi sakinlər arasında səmimi minnətdarlıq duyğuları oyatmışdır.

***

Rayondakı bir sıra yollar regionların sosial-iqtisadi inkişafı dövlət proqramına uyğun olaraq əsaslı şəkildə təmir olunsa da, neçə-neçə kəndi birləşdirən Bankə-Mayak yolunun diqqətdən kənarda qalması bu ərazidə yaşayan minlərlə insanı narahat etməyə bilməzdi. Rayon rəhbərinin yolun təmirini ilk gündən ciddi nəzarətə götürərək aidiyyəti qurumlar qarşısında məsələ qaldırdıqdan sonra yolun təmirinə başlanılması və vəziyyətlə yaxından tanış olması bütün narahatlıqlara son qoydu. Neçə vaxtdan bəridir ki, burada qızğın iş

təşəbbüs göstərən rayon icra hakimiyyətinin başçısı cənab Mirhəsən Seyidov icra başçısı kimi ilk əmək haqqını fondun hesabına köçürmüş, bu nəcib təşəbbüsə rayonun ayrı-ayrı idarə, müəssisə rəhbərləri, icra nümayəndələri, bələdiyyə sədrləri, sahibkarlar və imkanlı şəxslər də qoşularaq fonda ianələr etmişlər.

Təşkil olunan mobil qruplar vasitəsilə əhali arasında geniş maarifləndirici söhbətlər aparılmaqla insanlar xəstəliyin əlamətləri, virusdan qorunmağın yolları barədə ətraflı şəkildə məlumatlandırılırdılar. Adamlar rayon rəhbərinin "Evdə qal, özünü, ailəni qoru" çağırışını səmimi qəbul edərək lüzumsuz gəzintilərdən çəkinirdilər, evdə qalmağa daha çox üstünlük verirdilər. Koronavirusa qarşı əhalinin maarifləndirilməsinin bu gün də uğurla davam etdirilməsi xəstəliyin qarşısının alınmasında, rayon sakinlərinin təhlükəsizliyinin təmin olunmasında çox mühüm rol oynayır.

***

İyulun əvvəlində rayon icra hakimiyyətinin başçısı hörmətli Mirhəsən Seydovun "Monitorinq Komissiyasının yaradılması haqqında"kı 01 iyul 2020-ci il tarixli 36 saylı sərəncamından sonra rayonumuzda "COVİD-19" əleyhinə mübarizə tədbirləri xüsusilə genişlənməyə başladı. Mərkəzi bazarda, ictimai-iaşə müəssisələrində, çay evlərində, ticarət şəbəkələrində, küçə və meydanlarda müntəzəm reyd və yoxlamaların keçirilməsi nəticəsində nöqsan və qanun pozuntularının aşkara çıxarılması, bununla bağlı lazımi cəza tədbirlərinin görülməsi insanların məsuliyyət hissini gündən-günə yüksəltməyə başladı. İndiyə kimi rayonumuzda sərtləşdirilmiş karantin tədbirlərinin həyata keçirilməməsi məhz görülən kompleks tədbirlərin nəticəsidir. Buna baxmayaraq reyd və yoxlamalar sistemli şəkildə bu gün də davam edir, maarifləndirici tədbirlər durmadan genişləndirilir.

***

Koronavirus infeksiyasının qarşısının alınmasında dezinfeksiya işlərinin aparılması da ilk gündən daim diqqət mərkəzində olmuşdur. Bu məqsədlə rayon gigiyena və epidemiologiya mərkəzinin qabaqlayıcı profilaktik tədbirlərin həyata keçirilməsi məqsədilə yaratdığı 30

---

1 oktyabr — Prokurorluq İşçilərinin Peşə Bayramı Günüdür

Sabitliyin qorunması bu gün dünənkindən daha vacibdir

Koronavirus pandemiyasının dünyanın düzənini dəyişdiyi bir vaxtda inkişaf etmiş dövlətlərin belə iqtisadi və siyasi burulğanların məngənəsində sıxılaraq böyük itkilərə məruz qalması, ciddi çətinliklərlə üzləşməsi göz qabağındadır. Bir çox ölkələrdə insanlar bütün bunların günahkarı kimi siyasətlərini düzgün qura bilməyən, xalqından ayrı düşən dövlət başçılarına etirazlarını bildirdikləri bir vaxtda Azərbaycanda bunun tamamilə əksinədir. Ölkədə, cəmiyyət həyatında sabitlikdir. Prezident İlham Əliyev dövlət başçısı kimi fəaliyyətə başladığı ilk gündən xalqının, millətinin yanındadır. İstər daxili, istərsə də xarici siyasəti ilə onun mənafeyinə xidmət edir, ölkənin inkişafı, gələcək perspektivləri düzgün müəyyənləşdirildiyindən respublikamızın dünyadakı nüfuzu durmadan yüksəlir. Beynəlxalq reytinq agentliklərinin Azərbaycanı sabit investisiya mühitinə malik ölkə kimi dəyərləndirməsi bunun əyani göstəricisidir.

Bu inkişaf, tərəqqi, ölkədəki sabitlik dostlarımızı nə qədər sevindirirsə, bütün bunları gözü götürməyənləri də bir o qədər narahat edərək qıcıqlandırır. Anti-Azərbaycançı qüvvələr müxtəlif təxribatlar törətməklə inkişafımıza, uğurlarımıza kölgə salmağa, iğtişaşlar, qarışıqlıqlar yaratmaqla ölkəmizdəki sabitliyi hər vasitə ilə pozmağa çalışırlar. Özü də bunun tarixi yaxın günlərə yox, uzaq onilliklərə, əsrlərə gedib çıxır. Ötən əsrin əvvəllərində Şərqdə ilk demokratik dövlətimizi quranda da belə olmuşdu. Düşmənlərimiz Azərbaycan Xalq Cümhuriyyətini məhv etmək üçün hansı təxribatlara əl atmamışdılar?! Sabotajlar təşkil etmişdilər, terrorlar törətmişdilər, insanları üz-üzə qoymağa çalışmışdılar. Nazirlər Şurasının 1918-ci il 1 oktyabr tarixli qərarı ilə Bakı Dairə Məhkəməsinin tərkibində prokurorluq orqanlarının yaradılması da genişlənməkdə olan belə qanunazidd hərəkətlərin qarşısının alınması zərurətindən yaranmışdı. Tarixi keçmişimizə həmişə böyük hörmətlə, ehtiramla yanaşan ulu öndər Heydər Əliyev aradan 80 il ötəndən sonra məhz bu tarixə istinad edərək 17 iyul 1998-ci il tarixli fərmanı ilə oktyabrın 1-ni ölkəmizdə Prokrorluq Orqanları İşçilərinin Peşə Bayramı Günü elan edərək onu əbədiləşdirdi. Bu tarix bizim üçün bu gün də əzizdir. Hər il oktyabrın 1-də öz peşə bayramlarının sevincini yaşayan prokurorluq işçiləri haqlı olaraq öz tədbirlərinə ilk dəfə müstəqilliyimizi qoruyub saxlayaraq ona əbədiyaşarlıq haqqı, hüququ vermiş ümummilli liderin abidəsinin ziyarətindən başlayırlar.

Cümhuriyyət dövrünün digər təsisatları kimi prokrorluq orqanları da xalqa xidmət kimi şərəfli missiyalarını uzun müddət yerinə yetirə bilmədilər. Azərbaycan Demokratik Respublikasının süqutundan sonra onlar da 70 illik sovet rejiminə xidmət etməyə məcbur oldular. Buna baxmayaraq keçilən çətin yollar prokurorluq orqanlarına da zəngin təcrübə qazandırdı, onlar da xeyli dərəcədə mətinləşərək möhkəmləndilər.

Ölkəmiz müstəqilliyinə nail olduqdan sonra prokurorluq orqanları üçün yeni dövr başlandı. Məhz həmin vaxtan başlayaraq bu orqanlar xalqa, Vətənə xidmət etməyə başladılar. Amma çətinliklər, ağrı-acılar da az olmadı. Müstəqilliyimizin ilk illərindən xaos, anarxiya, çıxarılan əsassız qərarlar prokurorluq orqanlarının da işinə mane olur, onun fəaliyyətini xeyli dərəcədə məhdudlaşdırırdı. Amma bunun ömrü uzun olmadı. Xalqın təkidli tələbi nəticəsində hakimiyyət sükanını əlinə alan Heydər Əliyev çox keçmədi, hər şeyi kökündən dəyişməyə başladı. Bu müdrik insanın qətiyyəti sayəsində qanunsuz silahlı birləşmələr, quldur dəstələri zərərsizləşdirilərək ölkədə sabitlik yaradıldı, qayda-qanun bərpa olundu. Bütün bunlar isə heç də asan başa gəlmədi. Ulu öndərin həyatı üçün dəfələrlə ciddi təhlükələr yaransa da, o heç vaxt haqq yolundan dönmədi. Vətəni, xalqı, xalqının xoşbəxtliyi üçün var qüvvəsini sərf etdi. Belə çətin, ağır günlərdə digər sağlam qüvvələr kimi respublikanın prokurorluq orqanlarında çalışan vətənpərvər insanlar da daim ulu öndərin yanında oldular, onu qorudular, köməklərini əsirgəmədilər. Prezident Heydər Əliyevin 1994-ci ilin avqustunda imzaladığı "Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluğun və hüquq qaydalarının möhkəmləndirilməsi tədbirləri haqqında"kı fərmanından sonra aparılan çətin, amansız mübarizənin daim ön sıralarında oldular. "Prokurorluq haqqında", "Prokurorluq orqanlarında qulluq keçmə haqqında" qanunların və digər qanunvericilik aktlarının Milli Məclisdə qəbul olunması, "Prokurorluğa işə qəbul edilmək üçün namizədlərlə müsabiqə keçirilməsi haqqında Əsasnamə"nin və digər hüquqi normativ sənədlərin dövlət başçısı tərəfindən təsdiq edilməsi prokurorluq orqanlarında aparılan islahatların keyfiyyətcə yeni mərhələyə qədəm qoymasına şərait yaratdı. Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin 27 sentyabr 2008-ci il tarixli sərəncamı ilə təsdiqlənmiş "Azərbaycan Respublikası Prokurorluğunun fəaliyyətinin müasirləşdirilməsinə dair 2009-2011-ci illər üçün Dövlət Proqramı" bu cəhətdən çox mühüm əhəmiyyət kəsb edir. Məhz bu Ali dövlət sənədinin qəbulundan sonra respublikaknın prokurorluq orqanları keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. MDB məkanında ilk dəfə olaraq Azərbacan Prokurorluğuna əməliyyat-axtarış fəaliyyətini həyata keçirmək səlahiyyətlərinin verilməsi bu orqanlar tərəfindən korrupsiyaya qarşı mübarizənin yeni müstəvidə daha səmərəli təşkilinə imkan yaratmışdır. 14 fevral 2014-cü il tarixdə "Prokurorluq haqqında" və "Prokurorluq orqanlarında qulluqkeçmə haqqında" qanunlara dəyişiklik edilərək Baş prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə İdarəsinə Baş İdarə statusunun verilməsi onun fəaliyyətini daha da dərinləşdirərək səlahiyyətlərini xeyli dərəcədə artırmışdır. Bütün bunlar isə dövlət başçısının 24 iyul 2014-cü il tarixli fərmanı ilə təsdiq etdiyi yeni Əsasnamədə öz geniş əksini tapmışdır. Son vaxtlar Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi üçün "Əməliyyat-axtarış", "Beynəlxalq təşkilatlar", "Qaynar xətt" proqramlarının tərtib olunaraq istifadəyə verilməsi cəmiyyətlə baş idarə arasındakı əlaqələrin daha da genişlənərək möhkəmlənməsinə şərait yaratmışdır.

Nəsif NƏCƏFOV,
Neftçala Rayon Prokuroru, ədliyyə müşaviri

01 may 2020-ci il tarixdə möhtərəm Prezidentimiz cənab İlham Əliyevin, cənab Kamran Əliyevi Baş prokuror vəzifəsinə təyin etməsi ilə əlaqədar videoformatda qəbulu zamanı korrupsiyaya qarşı daha fəal iş görülməsini, struktur və kadr islahatları aparmaqla prokurorluğun yüksək standartlara və müasir tələblərə uyğun sivil təsisat kimi formalaşdırılmasını tövsiyə etməsi, eləcə də vurğuladığı digər vacib məqamlar prokurorluq orqanlarında cari islahatların təməlini qoymuşdur.

Aparılan islahatlar çərçivəsində prokurorluq orqanlarının cəmiyyətdə formalaşan yeni çağırışlara adekvatlaşdırılması, işində çevikliyin və səmərəliliyin artırılması, o cümlədən müasir dövrün tələblərinə cavab verən peşəkar dövlət təsisatı kimi yenidən formalaşdırılması məqsədilə cənab Prezident İlham Əliyevin 2020-ci il 10 iyun tarixli sərəncamı ilə Azərbaycan Respublikası Baş Prokurorluğunun yeni strukturu təsdiqlənmiş, qurumun strukturu qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla mahiyyətcə və tamamilə yenidən formalaşdırılmış, daha çevik, mobil və dinamik idarəetməyə malik idarələr yaradılaraq struktur qurumların sayı 15-dən 18-ə çatdırılmış, habelə idarəetmədə nəzarət mexanizminin optimallaşdırılması məqsədilə Baş prokurorun əlavə müavini vəzifəsi təsis olunmuşdur. Görülən işlərə paralel surətdə kadr korpusunun yenidən komplektləşdirilməsi istiqamətində işlər həyata keçirilmişdir. May ayının 1-dən halhazıra kimi struktur dəyişikliyi və təyinatlar, həmçinin digər məsələlərlə bağlı 700-dən artıq əmr imzalanmış, 100-dən artıq gənc prokurorluq işçisi rəhbər vəzifələrə, o cümlədən aparılan islahatların nəticəsi olaraq 45 prokurorluq işçisi rayon (şəhər) və ərazi hərbi prokuroru vəzifəsinə təyin olunmuşdur.

Dövlətimiz tərəfindən həyata keçirilən gender bərabərliyi siyasətinin uğurlu davamı kimi, prokurorluq orqanlarının kadr korpusunun 7 faizini təşkil edən qadın əməkdaşların 8 nəfəri bu qısa müddət ərzində rəhbər vəzifələrə - Baş Prokurorluğun idarə və şöbə rəisi, rayon prokuroru və rayon prokurorunun müavini vəzifələrinə təyin edilmişlər. Son illərdə rayon prokurorluqlarında maddi-texniki bazasının durmadan möhkəmləndirilməsi, kadr potensialının artırılması, əməkdaşların iş şəraitinin yaxşılaşdırılması, onların müasir texniki avadanlıqlarla təmin edilməsi və görülən digər tədbirlər dövlət başçısının bu sahəyə göstərdiyi qayğı və diqqətinin nəticəsidir. Bu da bizə imkan verir ki, üzərimizə düşən vəzifələri daha çevik şəkildə həyata keçirək, ictimaiyyətlə əlaqələrimizi durmadan möhkəmləndirək.

Ümumiyyətlə təkcə prokurorluq orqanlarında aparılmış islahatlar yox, digər sahələrdə aparılmış islahatlar, ölkəmizin uğurları göz qabağındadır, bir çox hallarda xəyal kimi görünən işlər, layihələr reallığa çevrilib. Respublikamızda demokratik hüquqi dövlət və vətəndaş cəmiyyəti formalaşdırılıb, dönməz və dayanıqlı ictimai-siyasi sabitlik yaradılıb. Bütün bunlar isə Prezident İlham Əliyevin düşünülmüş müdrik daxili və xarici siyasətinin nəticəsidir.

İllərlə qorunub saxlanılmış sabitlik, xalq-iqtidar birliyi bütün uğurlarımızın, tarixi qələbələrimizin başlıca təminatı, qarantıdır. Bu birliyi, həmrəyliyi biz iyul ayının əvvəlində ermənilərin Tovuzda törətdikləri təxribat zamanı bir daha əyani şəkildə gördük, yəqin etdik. Ölkəmiz üçün ciddi təhlükənin yarandığı həmin həyəcanlı günlərdə xalq ayağa qalxaraq öz Prezidentinə, Ali Baş Komandanına çox güclü dəstək verdi.

Dövlətimizin başçısı cənab İlham Əliyevin ardıcıl səyləri sayəsində yaradılan dayanıqlı sabitlik, birlik ən böyük sərvətimizdir. Xalqımız bütün uğurlara məhz bu birlik, sabitlik nəticəsində nail olmuşdur. Onun qorunaraq möhkəmləndirilməsi bu gün dünənkindən daha böyük əhəmiyyət kəsb edir. Anti-Azərbaycançı qüvvələrin gündən-günə fəallaşdıqları, ölkəmizə, xalqımıza qarşı yeni-yeni məkrli planların hazırlandığı bir vaxtda hər birmizdən ciddi sayıqlıq tələb olunur. Dövlətə, dövlətçiliyə sədaqətli olan Neftçala rayon prokurorluğu bundan sonra da öz fəaliyyətini günün tələbləri səviyyəsində qurmağa çalışacaqdır.

Dövlət qulluqçularının sayı və əmək haqqı barədə

Ölkənin idarə olunmasında və inkişafının gücləndirilməsində əhəmiyyətli rol oynayan dövlət qulluqçularının sayı həmişə diqqəti cəlb edən məsələlərdən olmuşdur. Belə ki, ötən 10 il ərzində rayonda fəaliyyət göstərən idarə və müəssisələrdə çalışan dövlət qulluqçularının sayı 12,4 faiz azalaraq 2020-ci il yanvarın 1-nə 163 nəfər olmuşdur ki, onların da 31,3 faizini qadınlar təşkil etmişdir. Dövlət qulluqçularının 84,7 faizi 4-7-ci təsnifatları, 15,3 faizi isə dövlət qulluğunun yardımçı vəzifələri üzrə işləmişdir.

Bu dövr ərzində daha təcrübəli işçilərlə yanaşı, gənc kadrların da dövlət qulluğuna cəlb olunması qarşıda duran ən mühüm məsələ olmuşdur. Son statistik məlumatlar göstərir ki, 2010-cu illə müqayisədə 30 yaşadək olan dövlət qulluqçularının sayı 45,5 faiz artmışdır. Dövlət qulluqçuları arasında gənclərin sayının artması onu göstərir ki, bu sahədə həyata keçirilən dövlət siyasəti öz bəhrəsini verməkdədir.

Ümumilikdə, 2020-ci il yanvarın 1-nə dövlət qulluqçuları rayon iqtisadiyyatında muzdla çalışan işçilərin 1,8 faizini təşkil edir. 2019 - cu ilin sonuna idarə və müəssisələrdə işləyən dövlət qulluqçularının 11,0 faizini 30 yaşadək, 10,4 faizini 30-34 yaşda, 22,1 faizini 35-44 yaşda, 20,3 faizini 45-54 yaşda,35,6 faizini 55-64 yaşda, 0,6 faizini 65 və yuxarı yaşda olan şəxslər təşkil edir.

Dövlət qulluqçularının 4,9 faizi 1 ilə qədər, 19,0 faizi 1 ildən 5 ilə qədər, 25,2 faizi 5 ildən 10 ilə qədər, 15,9 faizi 10 ildən 15 ilə qədər, 35,0 faizi isə 15 il və daha çox qulluq stajına malikdir.

Əmək siyasəti və əməyin ödənilməsi sahəsində ölkədə həyata keçirilən uğurlu islahatlar nəticəsində orta aylıq əməkhaqqının ilbəil artması əhalinin həyat səviyyəsinin yüksəldilməsini təmin etmişdir. Belə ki, 2012-ci illə müqayisədə rayon iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı 60,5 faiz artaraq 389,6 manata, minimum aylıq əməkhaqqı isə 10 dəfə artaraq 250 manata çatmışdır. Eyni zamanda, cari ilin altı ayı ərzində aylıq nominal əməkhaqqının artımı müşahidə olunmuş və 441,6 manat təşkil etmişdir.

Son 10 il ərzində ölkədə orta aylıq nominal əməkhaqqının müntəzəm artımı dövlət qulluqçularının əməkhaqqına birbaşa öz müsbət təsirini göstərmişdir. Belə ki, 2019-cu ildə dövlət qulluqçularının orta aylıq nominal əməkhaqqı 668,2 manat təşkil etmişdir ki, bu da əvvəlki illə müqayisədə 21,2 faiz, 2011-ci illə müqayisədə isə 95,5 faiz çoxdur

Şahin MƏNƏFOV,
rayon statistika idarəsinin rəisi

BALIQYETİŞDİRMƏ MÜƏSSİSƏLƏRİNDƏ VƏZİYYƏT NECƏDİR?

Müsahibimiz Xıllı Nərəbalıqartırma Zavodunun direktoru Elşad Əhmədovdur

— Rayonumuzda iqtisadi göstəricilərinə, səmərəliliyinə və perspektivliyinə görə ən mühüm müəssisələrdən biri də rəhbərlik etdiyiniz zavoddur. Bir qədər əvvələ qayıtsaq müəssisənin hansı zərurətdən yaradılması barədəki fikirləriniz təkcə bizim üçün yox, elə oxucularımız üçün də maraqlı olardı.

— Dünya sularında olduğu kimi Xəzər dənizində də balıq növləri çoxdur. Amma nərə cinsli balıqlar onların ən qiymətliləridir desək yəqin ki, yanılmarıq. Əvvəllər nəinki Xəzərdə, Kür çayında da belə balıqlar çox idi. Hər kəs bu balıqlardan, onların dünya şöhrətli qara kürüsündən dada bilirdi. Ancaq çox təəssüf ki, biz belə qiymətli sərvəti qoruyub saxlaya bilmədik, nərə cinsli balıqlar getdikcə azalmağa, tükənməyə başladı. Təbii artım az olduğundan bu yalnız süni yolla həyata keçirilə bilərdi. Xəzər dənizində bioliji resursların idarə olunması məqsədilə Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən Milli Proqramın hazırlanması da məhz bu zərurətdən irəli gəldi. Xəzər dənizində nərə cinsli balıq növlərinin genefondunun qorunub saxlanması, miqyasının genişləndirilməsi, bu cinsdən olan balıq törədicilərinin yetişdirilməsi məqsədilə yeni texnoliji proseslərin işlənib hazırlanması və digər mühüm məsələlər proqramda qarşıya qoyulan əsas vəzifələr idi.

— Bütün bunlar necə baş tutdu?

— Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə 1998-ci ildə Dünya Bankı tərəfindən maliyyələşdirilən "Təxirəsalınmaz ekoloji investisiyalar" layihəsi çərçivəsində. Zavod məhz həmin layihə əsasında tikilərək 2003-cü ildə istifadəyə verildi. Həmin il müəssisənin təntənəli açılış mərasimində Azərbaycan Respublikasının Baş naziri cənab İlham Əliyevin iştirak etməsi nəinki kollektivin, rayonun həyatında çox mühüm, unudulmaz hadisə idi. Açılış mərasimini özündə əks etdirən stendlərdəki fotoşəkillərə baxanda o günün böyük izdihamı, sevinci sanki yenidən gözlərimiz önündə canlanır, həmin unudulmaz günü yenidən yaşayırıq.

— Beləliklə, zavod istifadəyə verildi. Qarşıya qoyulan vəzifələrə necə, əməl olunduqmu?

— İlk əsas vəzifə o vaxtkı normativə uyğun 1, 1,2 qram çəkidə nərə cinsli balıq körpələrini yetişdirmək idi. Bütün texnoloji proses buna uyğun qurulmuşdu. Əvvəl belə də edilmişdi. Ancaq həmin ölçüdə olan balıq körpələrinin yaşamaq ehtimalı kifayət qədər etibarlı olmadığından mütəxəssislər daha iri, daha sağlam çəkiyə malik körpələrin yetişdirilməsi məsələsini qarşıya qoyaraq bunun üçün xeyli əziyyət çəkməli olmuşdular. Nəhayət, çəkilən zəhmət öz bəhrəsini vermişdi. 2019-2020-ci illərdə Kür çayına buraxılan balıq körpələrinin çəkisinin 80-150 qrama çatdırılması əsl uğur olmuşdu. Belə balıqların tələfolma faizi əvvəlki çəkiyə nisbətən daha az idi.

— Ana törədicilərin süni yolla yetişdirilməsi zərurəti nədən doğdu?

— Balıq körpələrinin alınması prosesi birinci növbədə keyfiyyətli törədicilərin əldə edilməsindən başlayır. Xəzərdə nərə cinsli balıq ehtiyatlarının azalması balıqyetişdirmə müəssisələri üçün törədicilərin də süni yolla yetişdirilməsini gündəmə gətirdi. Vəziyyət göstərdi ki, bu məsələni balıqyetişdirmə müəssisələri özləri həll etməsələr proses dayanacaq, körpə balıqların istehsalı ləngiyəcək. Məsələ Ekologiya və Təbii Sərvətlər Nazirliyinin hazırladığı Milli Proqramda öz əksini tapdığından Xıllı Nərəbalıqartırma Zavodunda da bu istiqamətdə konkret addımlar atılmağa başlanılıb. Nəhayət, 2013-cü ildə ilk dəfə bir neçə nərə balığından onları öldürmədən yumurtalıq yolunun kəsilməsi üsulu ilə yetkin kürü alınmasına nail olunub. Bundan sonra həmin ana balıqların diri şəkildə qorunub saxlanılması da təmin edilib. 2004-cü ildən müəssisədə təmir-törədici fondun yaradılması kürüdən alınan sağlam körpələrin yetişkənlik həddinə çatdırılaraq onlardan cinsi məhsulların alınması törədici məsələsinə birdəfəlik son qoyub. İndi zavodun təmir-törədici fondunda7 min ədəddən çox müxtəlif yaş qruplarına aid balıqlar saxlanılır ki, onlar da sağlam törədicilər kimi körpə balıq istehsalının daimiliyini və davamlılığını təmin edəcəkdir. Müəssisədə törədici balıqların sayının durmadan artırılması gələcəkdə respublikada fəaliyyət göstərən nərə balıqartırma zavodlarının belə törədicilərə olan tələbatlarının ödənilməsinə öz müsbət təsirini göstərəcəkdir.

— Bunlar elmi axtarışlar, həyata keçirilən yenidənqurma tədbirləri nəticəsində əldə olunan uğurlardır. Müəssisənin istehsal göstəriciləri, bu sahədəki nəticələr barədə nə deyərdiniz?

— Zavod istifadəyə verildikdən bir il sonra, 2004-cü ildən başlayaraq burada nərə cinsli balıq körpələrinin yetişdirilərək Kür çayı vasitəsilə Xəzər dənizinə buraxılması prosesinə başlanılmışdır. İndiyə kimi müəssisədə istehsal olunan balıqların ümumi sayı 75,5 milyon ədəddən artıqdır. Ötən ilki mövsümdə bu rəqəm 342 min ədəd idi, bu il isə 548,5 min ədəddən artıq balıq körpələri yetişdirməyi planlaşdırmışdıq. Elə buna görə cari ilin yaz-yay balıqyetişdirmə mövsümünə xüsusilə geniş hazırlıq işləri görürdük. Həmin qayğılı günlərimizdə rayon icra hakimiyyətinin başçısı hörmətli Mirhəsən Seyidovun zavodumuza gələrək görülən işlərlə, həyata keçirilən tədbirlərlə yaxından tanış olması, karantin qaydalarına uyğun balıqyetişdirənlərlə səmimi söhbət etməsi, özünün dəyərli məsləhətlərini verməklə yanaşı çətinliklərimizlə, problemlərimizlə maraqlanması kollektivimizə yeni ruh verdi, onların əhvali-ruhiyyəsini xeyli dərəcədə yüksəltdi. Ötən il yetişdirdiyimiz balıq körpələrinin Kür çayı vasitəsilə Xəzər dənizinə buraxılmasında isə İDEA İctimai Birliyinin rəhbəri Leyla xanım Əliyeva, Ekologiya və Təbii Sərvətlər naziri cənab Muxtar Babayev və FAO təşkilatının nümayəndələri iştirak etmişdilər. Həmin səmimi görüşlər zamanı onların verdikləri dəyərli məsləhətlər, tövsiyələr də bizim üçün çox önəmlidir.

— Bir neçə gün bundan qabaq Ekologiya və Təbii Sərvətlər naziri cənab Muxtar Babayevin, rayon icra hakimiyyətinin başçısı cənab Mirhəsən Seyidovun və digər məsul şəxslərin, mütəxəssislərin yenidən müəssisənizdə olmaları da yəqin bu mühüm sahəyə verilən önəmdən irəli gəlir?

—Elədir. Bu, respublikamızda balıqçılığın inkişafına, balıqyetişdirənlərimizə göstərilən qayğı və diqqətin yeni bariz nümunəsidir. Cənab nazir və hörmətli rayon rəhbəri görülən işlərlə bir daha yaxından tanış oldular, Kür çayı vasitəsilə Xəzər dənizinə buraxılacaq körpə balıqlara baxdılar, ayrı-ayrı sex və sahələrdə oldular, çətinlik və problemlərimizlə maraqlandılar, bizə lazımi məsləhət və tövsiyələrini verdilər. Göstərdikləri qayğı və diqqətə görə cənab nazirə və rayon rəhbərinə səmimi təşəkkürümüzü bildiririk.

Artıq lazımi çəki həddinə çatan körpə balıqların Xəzərə buraxılması prosesinə başlamışıq. Hamısı tam sağlamdır. Əminik ki, onlar geniş suların qoynunda sürətlə inkişaf edərək illər sonra yetişkənlik həddinə çatacaqlar.

— Nəsli kəsilməkdə olan qiymətli balıq ehtiyatlarının artırılması bizi də ürəkdən sevindirir. Bu çox vacib, səmərəli işdir. Yəqin əldə etdiyiniz uğurlarınızda, nailiyyətlərinizdə qabaqcılların əməyi, zəhməti daha çoxdur. Belələrindən kimlərin adlarını çəkmək istərdiniz?

— Mənə qalsa, fərqləndirmək istəməzdim. Bütövlükdə kollektivimiz peşəkar, təcrübəli, işgüzardır. Hər kəs öz işinə böyük məsuliyyətlə yanaşır. Sözün əsl mənasında kollektivimizlə fəxr edirəm. İnanıram ki, birgə səylə, əlbir çalışmaqla qarşıda duran vəzifələrin öhdəsindən də layiqincə gələcəyik.

— Azərbaycanın Xəzəryanı ölkələr arasında nərə cinsli balıqların Xəzərə ötürülməsi istiqamətində Rusiya və İrandan sonra üçüncü yerdə olması çox sevindiricidir. Şübhəsiz, bu böyk nailiyyətdə rəhbərlik etdiyiniz kollektivin də zəhmət payı böyükdür. Qarşıda isə işlər daha çox və genişdir. Ona görə bu işlərin yerinə yetirilməsində sizə də, gecə-gündüz körpə balıqların nazını çəkən, min zəhmətlə onları böyüdərək suların qoynuna ötürən işgüzar kollektivinizə də yeni-yeni uğurlar arzulayırıq.

Müsahibəni apardı:
Habil ƏSƏDOV

VƏTƏNLƏŞƏN ŞƏHİDLƏR

XX əsrn sonunda, nəhayət, dünyanın ən nəhəng sonuncu imperiyası olan SSRİ dağıldı. Onun əsarətində olan Avropa dövlətləri, müttəfiq respublikalar azadlıq, müstəqillik əldə etdilər, suverenlik qazandılar. Amma etiraf edək ki, bu azadlıq, müstəqillik bizə çox baha başa gəldi, qanlara, qırğınlara məruz qaldıq. Mənfur qonşumuz Ermənistan tərəfindən ədalətsiz müharibəyə cəlb olunduq, bir milyondan artıq soydaşımız öz dədə-baba torpaqlarından didərgin düşdü, Qarabağ kimi cənnət güşəsi olan torpağımız işğal olundu. Terrorlara, təxribatlara məruz qaldıq.

Xoşbəxtlikdən ən çətin günlərdə xalqımızın xilaskar oğlu Heydər Əliyev öz xalqının qolundan tutdu, dövlətimizi və dövlətçiliyimizi məhv olmaq təhlükəsindən xilas etdi. Amma təəssüf ki, Ermənistan yenə öz mənfur niyyətlərindən əl çəkmir, yeni-yeni torpaq iddialarına düşür. Bu yaxınlarda Tovuzda baş verən erməni təxribatı bədnam ölkənin növbəti qanunsuz əməlindən biri idi. Nəticədə generalımız, əsgər və zabitlərimiz həlak oldu. Qəhrəman ordumuz düşmənin layiqli cavabını verdi, şəhidlərimizin qanı yerdə qalmadı.

Artıq şəhidlərimizin torpağa tapşırıldığı gündən qırx gün keçdi. Vətən torpağına qarışıb vətənləşən oğulları xalqımız bir daha böyük ehtiramla yad edir. Belə vaxtda biz neftçalalılar da generalı əsgərlə, əsgəri generalla bir zirvədə dayanan ölməz oğullarımızı böyük hörmətlə, ehtiramla anırıq, onların ruhunu başımızın üstündə bayraq kimi uca tuturuq. Qadir Allahdan şəhidlərimizə qəni-qəni rəhmət diləyirik.

Z. MƏMMƏDOV

YARALI ZABİTƏ BAŞ ÇƏKİLDİ

Ermənistanın baş naziri Nikol Paşinyanın verdiyi vədləri yerinə yetirə bilməməsi üzündən xalq arasında nüfuzunu gündən-günə itirməsi, hörmətdən düşməsi, bunun müqabilində Azərbaycanın beynəlxalq aləmdəki nüfuzunun getdikcə yüksəlməsi, ölkədə xalq-iqtidar birliyinin durmadan möhkəmlənməsi şübhəsiz ki, qarşı tərəfdə qıcıq doğurmaya bilməzdi. Bununla yanaşı Ermənistana, Ermənistan rəhbərliyinə göstərilən təzyiqlər də durmadan artmaqdadır. Belə vəziyyətdə istər xalqın, istərsə də beynəlxalq təşkilatların fikirlərini yayındırmaq üçün Paşinyana yalnız bir yol qalırdı: Təxribatlar törətməklə çaşqınlıq yaratmaq.

2016-cı ilin Aprel döyüşləri ərəfəsində də belə olmuşdu. O vaxt qəhrəman ordumuz Ali Baş Komandanlığının rəhbərliyi altında düşmənə sözün əsl mənasında vay vermişdi. Ermənilər çoxlu itgilər verərək geri çəkilməyə, zəbt etdikləri torpaqlarımızdakı səngərlərini qoyaraq qaçmağa məcbur olmuşdular. Bu ilin iyul döyüşlərində də ordumuz düşmən təxribatına cavab olaraq ona növbəti dəfə sarsıdıcı zərbələr endirdi. Onlar bu dəfə də böyük itgilərə məruz qaldılar, iç üzləri, məkrli niyyətləri bir daha istər öz xalqı, istərsə də beynəlxalq ictimaiyyət qarşısında açıldı.

Çox təəssüf ki, düşmən təxribatının qarşısının alınmasında biz də itki verdik, generalımızı, bir-birindən dəyərli zabitlərimizİ, əsgərlərimizİ itirdik. Mənfur ermənilər bu dəfə də dinc əhaliyə atəş açmaqdan çəkinmədilər. Mülki şəxsimiz də namərd düşmən güllәsinə qurban oldu. Həmin çətin günlərdə xalqımızın ordumuzla, Ali Baş Komandanla həmrəylik, birlik nümayiş etdirməsi qürurverici idi.

Döyüşlər zamanı həmyerlimizin, ordumuzun zabiti baş leytenant Saleh Bilal oğlu Talıbovun ağır yaralanması da qəlbimizi ağrıtdı. Karantin qaydalarına uyğun olaraq rayon icra hakimiyyətinin başçısı hörmətli Mirhəsən Seyidov məhdud sayda şəxslə zabitlə evində görüşərək ailəsi ilə səmimi söhbət etdi, ona tezliklə sağalmasını arzuladı.

Rayon rəhbəri rayon mərkəzi xəstəxanasına yaralı zabitə xüsusi diqqətin ayrılması ilə bağlı tapşırıqlarını verdi.

Baş çəkdiklərinə, qayğı göstərdiklərinə görə rayon rəhbərinə və gələn qonaqlara özünün səmimi təşəkkürünü bildirən baş leytenant Saleh Talıbov ordumuzun zəfər yürüşündən, döyüş xatirələrindən danışdı. Sağaldıqdan sonra yenidən ordu sıralarına qayıdacağını bildirdi.

Ruqiyə ƏSƏDOVA

"Hər birimiz əsgərik"

Ermənilərin Tovuzda törətdikləri təxribatlardan sonra ordumuza dəstək aksiyaları durmadan genişlənməkdədir. Şübhəsiz, rayonumuz da ümumxalq hərəkatına çevrilən belə aksiyalardan kənarda qala bilməzdi. Rayon icra hakimiyyəti tərəfindən irəli sürülən "Hər birimiz əsgərik" aksiyası da ümumxalq hərəkatına, ümumxalq həmrəyliyinə bir dəstəkdir. Aksiya çərçivəsində Neftçala Rayon İcra Hakimiyyəti səngərlərin möhkəmləndirilməsi üçün cəbhəyə işlənmiş təkər şinlərinin göndərilməsinə start velmişdir. Cəbhədə istehkam sədlərinin qurulmasında, müdafiə xarakterli obyektlərin möhkəmləndirilməsində istifadə olunacaq avtomobil şinlərinin müxtəlif yük maşınları vasitəsilə cəbhə xəttinə göndərilməsi vətənpərvərlik nümunəsidir. Belə vaxtda orduya, əsgərlərimizə layiqincə dəstək vermək, kömək göstərmək hər bir ölkə vətəndaşının borcudur. Aksiyanın həyata keçirilməsində rayon icra hakimiyyəti başçısının ərazi inzibati dairəsi üzrə nümayəndəlikləri, rayon polis şöbəsi, rayon səfərbərlik və hərbi xidmətə çağırış şöbəsi, mənzil kommunal təsərrüfat istehsalat birliyi, Neftçala "DOST İş" mərkəzi və rayonun könüllüləri yaxından iştirak etməklə layiqli köməkliklərini göstərmişlər.

Murad ƏHMƏDOV

KƏNDDƏ SUBARTEZİAN QUYUSU QAZILACAQ

Son vaxtlar Kür çayında suyun səviyyəsinin kəskin şəkildə aşağı düşməsi, bu səbəbdən çayın aşağı hissəsində suyun şorlaşaraq içmək üçün yararsızlaşması, ayrı-ayrı rayonlarda su qıtlığının yaranması əlavə tədbirlərin həyata keçirilməsini, sudan, su mənbələrindən daha qənaətlə istifadə edilməsini zərurətə çevirmişdir. İyulun 23-də Prezident İlham Əliyevin yanında su təsərrüfatının vəziyyətinə həsr olunmuş videoformatdakı müşavirədən sonra dövlətimizin başçısının "Əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılmasına və əhalinin içməli suya tələbatının ödənilməsinə dair əlavə tədbirlər haqqında" sərəncamı imzalaması da bununla əlaqədar idi.

Sərəncama əsasən "Azərsu" Açıq Səhmdar Cəmiyyətinə və Dövlət Neft Şirkətinə tapşırılmışdır ki, əhalisi 65122 nəfər olan 15 rayonun 24 yaşayış məntəqəsində əkin sahələrinin və əkin üçün istifadə olunan həyətyanı torpaq sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, habelə əhalinin içməli suya tələbatının ödənilməsi üçün 24 ədəd subartezian quyularının qazılmsını təmin etsinlər.

Sevindirici haldır ki, qazılması nəzərdə tutulan bu quyulardan biri də rayonumuzun Xolqarabucaq kəndində həyata keçiriləcəkdir. Rayonda, o cümlədən Xol zonasında şirin su qıtlığının yaşandığı indiki vaxtda bu, kənd sakinləri üçün ən layiqli hədiyyədir. Çətin vaxtda göstərdiyi köməyə, qayğıya və diqqətə görə Xolqarabucaq kəndinin sakinləri, bütövlükdə neftçalalılar Prezident İlham Əliyevə özlərinin səmimi minnətdarlıqlarını bildirirlər.

Məhərrəmlik mərasimi: YENİ TƏLƏBLƏRƏ UYĞUN

Məhərrəm ayı Hicri-qəməri ilinin ayları arasında müqəddəs aylardan biridir. Bu ay Həzrət Peyğəmbərin (s) buyurduğu kimi, müharibələrin qadağan olunduğu aylardan biri olmasına baxmayaraq, Aşura günü İmam Hüseyn əleyhissəlam tərəfdarlarının haqq uğrunda şəhadətə yetişdiyi gün kimi Əhli-Beyt (ə) tarixinə kədərli, lakin, eyni zamanda, inanclı insanlara qürur bəxş edən bir məqam kimi daxil olmuşdur. Kərbəla faciəsinin nəsillərin yaddaşında yaşaması, İmam Hüseyn əleyhissəlamın həyat və mübarizəsinin yad edilməsi olduqca böyük mənəvi-əxlaqi əhəmiyyət kəsb edir. İmam Hüseyn əleyhissəlamın əzadarlığı iman sevgisinin, əqidəyə sadiqliyin, Vətən uğrunda şəhadətə hazırlıq ruhunun təcəssümüdür.

Bu il Aşura dünyada davam edən koronavirus pandemiyası dövrünə təsadüf edir. Aylardır ki, koronavirus pandemiyası bütün dünyanı cənginə alıb, yüz minlərlə insan bu qorxunc bəla üzündən həyatını itirib, milyonlarla insan xəstəxanalarda ölümlə həyat arasında mübarizə aparmaqdadır. Ölkə Prezidenti İlham Əliyevin, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərliyi və diqqəti sayəsində vətəndaşlarımızın sağlamlığı üçün önləyici tədbirlər görülür, həm Bakıda, həm də ayrı-ayrı bölgələrimizdə modul tipli xəstəxanalar istifadəyə verilir. Xəstəliklə mübarizədə yerli həkimlər fədakarlıq nümayiş etdirirlər, əcnəbi həkimlər də prosesə cəlb olunur, Nazirlər Kabineti yanında Operativ Qərargah xəstəliyin miqyasının genişlənməməsi, əhalinin sağlamlığının qorunması məqsədi ilə lazımı tədbirlər həyata keçirir, müvafiq tövsiyələrini verir.

Dini mərkəz — Qafqaz Müsəlmanları İdarəsinin ölkəmizdə karantin gündəmə gələn ilk günlərdən Nazirlər Kabineti yanında fəaliyyət göstərən Operativ Qərargah ilə ətraflı məsləhətləşmələrindən sonra zəruri tövsiyələr nəzərə alınaraq, koronavirusa yoluxma hallarının qarşısının alınması məqsədilə ölkə ərazisindəki bütün məscid və ziyarətgahlarda ibadətlərin müvəqqəti dayandırılmasına dair qərar verilmişdir. Uca Allahın yaratdığı ən müqəddəs dəyər olan insan həyatının qorunması məqsədi ilə bu məcburi addımın atılmasında əsas məqsəd vətəndaşlarımızın həyat və sağlamlığının qorunmasıdır.

Dinimiz müxtəlif xəstəliklərə qarşı önləyici tədbirlərin alınmasına, xüsusilə yoluxucu xəstəliklərə qarşı son dərəcə diqqətli olmağa çağırır. Hər bir insan belə bir təhlükədən özünü gözləməlidir. Bir yerdə yoluxucu xəstəlik olduğunu bilə-bilə oraya getmək insanın özünü təhlükəyə atması deməkdir. Ona görə belə xəstəlik ehtimalı olan yerlərdən uzaq durmaq lazımdır. Yoluxucu xəstəlik olan vəba haqqında Həzrəti Peyğəmbər (s) belə buyurmuşdur: "Vəbanın ortaya çıxdığını eşitdiyiniz bir yerə getməyin. Əgər olduğunuz yerdə vəba görünərsə, siz də oradan kənara çıxmayın". Yoluxucu xəstəliklərin geniş yayıldığı şəraitdə yaşayan insanlar bu mövzuda ayıq olmalı, heç bir vəchlə öz həyatını təhlükəyə atmamalıdır. Çünki, həm gündəlik həyatımızdan, həm də tarixdən məlum olduğu kimi, yoluxucu xəstəliklər məhz insanların etinasızlığı ucbatından sürətlə yayılmış və bəşəriyyətin bəlasına çevrilmişdir.

Dövlətimiz tərəfindən görülən zəruri tədbirlərə böyük önəm və dəyər verən biz din xadimləri hər zaman olduğu kimi, yenə dövlətimizin yanındayıq və onun xalqımızın rifah və tərəqqisi naminə səylərini dəstəkləyir, fəaliyyətinə rəvac diləyirik. Hökümətimiz tərəfindən müəyyən edilmiş bütün zəruri qaydalara əməl edilməli, verilmiş tövsiyələr hər kəsə təlqin edilməli, xəstəlik təhlükəsinin qarşısının alınması, tezliklə sovuşması üçün hər kəs əlindən gələni əsirgəməməlidir.

Vətənimizin və millətimizin rifahı üçün Allaha dualar etmək hər zaman hər birimizin mənəvi borcudur. Məhərrəmlik dönəmində də bütün ibadət və dualarımızda Kərbəla şəhidləri ilə yanaşı Qarabağ, Xocalı şəhidlərinin, suverenliyimiz, ərazi bütövlüyümüz uğrunda canlarından keçən bütün Vətən övladlarının əziz xatirəsini yad edir, Ali Baş Komandanın rəhbərliyi ilə torpaqlarımızın işğaldan tezliklə azad olunmasını diləyirik. Vətəni sevmək imandandır. Allah tezliklə Qarabağımızın işğaldan azad olmasını, Vətən torpağının bütövlüyünün bərpasını bizlərə nəsib etsin.

Məhərrəmlik dövründə təziyə ehsanı olaraq imkansız ailələrə, maddi sıxıntı çəkən insanlara ərzaq və ya hər hansı sovqatın çatdırılması Allaha xoş gedən bəyənilən əməldir. Həmçinin, son illər Məhərrəmlik dönəmində Qafqaz Müsəlmanları İdarəsinin təşəbbüsü ilə gerçəkləşən və xalqımız tərəfindən təqdir edilən tibbi ehtiyaclar üçün Kərbəla şəhidlərinin xatirəsinə qan verilməsi ən münasib əzadarlıq nümunəsidir. Ümidvarıq ki, inşallah, dindarlarımız bu il də humanist ənənəni davam etdirərək, pandemiya səbəbindən məscidlərdə deyil, ölkəmizin Qan bankının paytaxtda və bölgələrdəki filiallarında ehsan niyyəti ilə qan verəcəklər.

Bütün bunlar Qafqaz Müsəlmanları İdarəsi Qazilər Şurasının bizə ünvanladığı müraciətin bəzi məqamlarıdır. Məhərrəmlik mərasimi ilə bağlı öz işimizi, fəaliyyətmizi biz də bu müraciətdə qarşımıza qoyulan tələblər əsasında qururuq, istiqamətləndiririk. Koronavirus pandemiyasının törətdiyi fəlakətləri biz də dərindən dərk edirik. Ölkəmizdə olduğu kimi, rayonumuzda da Operativ Qərargahın müəyyənləşdirdiyi karantin qaydalarına əməl olunması üçün ciddi tədbirlər görülür, geniş maarifləndirmə işləri aparılır.

Ötən ilə kimi məhərrəmlik mərasimi dini qaydalara uyğun keçirilirdi. Aşura günündə çoxlu sayda insanlar bir yerə toplaşaraq Kərbəla çölündə haqq yolunda şəhid olan İmam Hüseyn Əleyhissəlam və onun tərəfdarlarına yas saxlayır, birlikdə namaz qılırdılar. Məscidlərdə ehsanlar verilirdi. İnsanlar bu ehsanlarda kütləvi şəkildə iştirak edirdilər. Təbii ki, pandemiya dövründə, ciddi karantin qaydalarının tətbiq edildiyi indiki vaxtda bütün bunları etmək olmaz. Bizə olunan müraciətdə də belə deyilir. Bununla bağlı biz də əhali arasında, dini icma rəhbərləri ilə geniş təbliğat-təşviqat işləri aparmışıq, mövcud vəziyyəti insanlara geniş izah etmişik. Onlar da bizi başa düşüblər. Dövlətin həyata keçirdiyi tədbirlərin yalnız insanların, xalqın sağlamlığının qorunmasına xidmət etdiyini anlayıblar. Rayonumuzda məhərrəmlik mərasimində qaydalara əməl olunması, insanların bir yerə toplaşmaması, kütləvi tədbirlərin keçirilməməsi də bununla əlaqədardır.

Aşura günündə də belə oldu. İllərlə, on illərlə müşaiyət olunan izdihamlı toplantılar bu il olmadı. Neftçalalı mömünlər, İmam Hüseyn aşiqləri bu böyük insana olan sevgilərini, məhəbbətlərini öz evlərində ifadə etdilər. Əsas məsələ də elə ürəkdən, qəlbdən gələn sevgidir. İmam bu böyük sevgini nahaqqa boyün əyməməklə, haqq yolunda özünü qurban verməklə qazanmışdır. Bu elə böyük sevgidir ki, əsrlərin keçməsinə baxmayaraq heç vaxt azalmır, tükənmir, əksinə, getdikcə artır, daha da möhkəmlənir.

İmkansıza kömək etmək, arxasıza arxa olmaq, yıxılanın qolundan tutmaq cəmiyyətdə həmişə böyük razılıq hissi ilə qarşılanıb. Müraciətdə deyildiyi kimi, Məhərrəm ayında belə əməllərə xüsusilə üstünlük verilməlidir. Pandemiya dövrünün çətinlikləri də bunu tələb edir. Rayonumuzda su qıtlığının yaşandığı dövrdə dövlətin, rayon rəhbərliyinin gördüyü tədbirlərlə yanaşı, neçə-neçə imkanlı şəxsin buraya su göndərməsi, köməkliklərin olunması Allaha xatir savab əməllərdəndir. İndiki vaxtda cəmiyyətin, aztəminatlı ailələrin belə əməllərə daha çox ehtiyacı var. Gəlin bunu unutmayaq, xeyirxah işlərimizi, əməllərimizi daha da artıraq.

İmam Hüseyn Əleyhissəlam və onun tərəfdarları var-dövlətdən imtina edərək haqqı uca tutduqlarına, zülmə boyun əymədiklərinə görə şəhid olsalar da, milyonlarla insanın qəlbində özlərinə əbədiyaşarlıq haqqı, hüququ qazandılar. Bu, nəsillər üçün böyük bir nümunə, örnək olub. Qarabağ uğrundakı mübarizəmiz də haqq işidir. Minlərlə vətən övladı, yüzlərlə neftçalalı bu yolda şəhid olmuşdur. İyulun əvvəlində igid generalımız, neçə-neçə vətənpərvər zabit və əsgərlərimiz də torpaqlarımızın bütövlüyü uğurnda canlarını qurban verdilər. Onların əziz, unudulmaz xatirəsi də qəlbimizdə daim yaşayacaqdır. Dualarımızda Kərbəla şəhidləri ilə yanaşı, Qarabağ şəhidlərimizi də ehtiramla yad edir, onlara Uca Yaradandan qəni-qəni rəhmət diləyirik.

Hacı Mirseymur ƏLİYEV,
QMİ-nin Neftçala rayonu üzrə səlahiyyətli nümayəndəsi

GÜNDOĞAR

№ 17-18 (6744) 14 sentyabr 2020-ci il

SON SƏHİFƏ

Bahəddin Leysanov — 70

Belə böyük hörməti qazanmaq heç də asan deyil

Hörmətli Bahəddin müəllim!

Masallı rayonunun Binə-Xocavar kəndində dünyaya göz açsanız da ilkin gəncliyinizdən üzü bəri bizimlə birlikdə olmusunuz. Azərbaycan Politexnik İnstitutunu və Azərbaycan Kənd Təsərrüfatı Akademiyasını bitirdikdən sonra ilk əmək fəaliyyətinə Salyandakı 9 saylı Mexanikləşdirilmiş Səyyar Dəstədən başlasanız da, rayonumuzdakı kolxozlararası tikinti idarəsindəki, 31 saylı Mexanikləşdirilmiş Səyyar Dəstədəki fəaliyyətiniz daha uzunmüddətli olub. Sadə, səmimi, əməksevər neftalalılarla işləmək, onlarla birlikdə olmaq sizə daha çox rahatlıq gətirib, əsl dostluğun, yoldaşlığın nümunəsini burada tapmısınız.

Elə buna görə də bağlanmısınız Neftçalaya, onu özünüzə əbədi məskən sanmısınız. Halbuki, zəngin təbiəti, qaynar həyatı ilə seçilən doğma Masallıda və ölkəmizin digər şəhər və rayonlarında çalışmaq, işləmək bəlkə sizə buradan, bu kasad Neftçaladan daha çox fayda gətirərdi. Amma siz rayonumuza üstünlük verdiniz, burada yaşayıb yaratdınız, özünüzə yeni-yeni dostlar tapdınız. Hamısı da bir-birindən dəyanətli, sədaqətli. Bununla sübut etdiniz ki, insan hər yerdə hörmət, izzət sahibi ola bilər, təki ürəkdə həyat eşqi olsun, düzü əyridən seçə bilsin, insanlara, xüsusilə ürəkləri geniş, qəlbləri təmiz sadə insanlara qaynayıb qarışsın, daim onların yanında olsun.

Rayonumuzun ən böyük müəssisələrindən sayılan Neftçala Pambıqtəmizləmə Zavodunda, bu zavodun da daxil olduğu "Salyan-Pambıq" ASC-də və digər təşkilatlarda, müəssisələrdə çalışanda da belə etdiniz. İnsanların dolanışığının, güzəranlarının yaxşılaşması üçün əlinizdən gələni əsirgəmədiniz. Müəyyən çətinlik ucbatından, bu və ya digər səbəb üzündən qapınıza gələn, Sizdən kömək diləyənləri heç vaxt naümid yola salmadınız. Bəlkə də belə sadə, səmimi insanların ürəkdən, içdən gələn dualarıdır sizə güc verən, yolunuzu işıqlandıran, dərddən, bəladan qoruyan. Axı Böyük Yaradan hər şeyi daha yaxşı görür, daha yaxşı dəyərləndirir. Necə ki, gördü, dəyərləndirdi.

İşlərinin öhdəsindən bacarıqla gələn insanlar cəmiyyətin də diqqətindən heç vaxt yayınmırlar. Beləliklə, hamışə irəli çəkilirlər, daha yüksək vəzifələrə təyin olunurlar. 90-cı illərin tətalümlü günlərində sizi Neftçala Rayon İcraiyyə Komitəsinin sədri vəzifəsinə gətirən də el yanındakı böyük hörmətiniz, zəngin həyat təcrübəniz, ən əsası sizə bəslənilən inam, etibar oldu. Siz bu inamı, etimadı layiqincə doğrultdunuz. Məsul vəzifənizin öhdəsindən layiqincə gəlməklə yanaşı, sizə müraciət edənlərə də daim diqqətli oldunuz, köməksizlərdən köməyinizi əsirgəmədiniz.

Dostlarınızın, tanışlarınızın sayının çox olmasının əsas səbəbi də elə etdiyiniz bu yaxşılıqlar, xeyirxahlıqlardır. Onları hər yerdə məhəbbətlə dilə gətirirlər, nümunə göstərirlər. Ən böyük qazancınız da elə nail olduğunuz bu böyük el hörmətidir. Onun miqyası isə bir kəndə, bir rayona sığmır, çox genişdir. Təkçə respublikamızda deyil, respublikamızdan kənarda da yaxşı tanıyır, dəyərləndirirlər Sizi. Hansı qapını açsanız orada özünüzə məxsus layiqli yeriniz var. Xeyir-şər məclislərindəki iştirakınızı da el görür, qiymətləndirir. Kasıb, imkansız insanları yad etməyiniz, kömək göstərməyiniz xüsusilə önəmlidir. Belə ailələrdən olan o qədər gəncin toyunu etmisiniz ki! Bu, doğrudan da əsl böyüklük, ağsaqqallıq, alicənablıqdır.

Həyat gör-götür dünyasıdır deyib ulularımız. Şübhəsiz, alicənablığınız, insanlara, insanlığa, ətrafınızdakılara qarşı xeyirxahlıqlarınız ailənizin, övladlarınızın da diqqətindən yayına bilməzdi. Yayınmadı da. Onlar da Sizdən nümunə götürdülər, Sizə oxşamağa çalışdılar. İndi övladlarınızın da özlərinə məxsus hörmətləri, izzətləri var. Böyüyün də, kiçiyin də yerini bilən, insanları, insanlığı sevən belə yetişdirmələrinizlə fəxr edə bilərsiniz. Onlar da xeyirxah əməlləri, yaxşı işləri ilə elimizə, obamıza başucalığı gətirirlərsə, bundan necə sevinməyək, halal olsun deməyək?!

Deyirlər xeyirxah, nurlu insanlar Ulu Yaradanın Cənnətini elə bu dünyada qazanırlar. Siz də elələrindənsiniz. Buna baxmayaraq Allahın müqəddəs evini — Kəbəni ziyarət etməyi də özünüzə borc bildiniz. Bu həm də yeni böyük məsuliyyət idi. Bunu dərindən dərk etdiniz. Daim xoş təbəssüm yağan çöhrənizin nuru, işığı bir az da artdı. Nail olduğunuz Hacı titulunu ləyaqətlə daşıyırsınız.

Siz həm də rayon mətbuatının, "Gündoğar"ın yaxın dostusunuz. Onun bağlamalarını vərəqləsək səhifələrində Sizinlə bağlı onlarla yox, yüzlərlə məqalənin şahidi olarıq. Mərhum redaktorumuz Vaqif Əliyevin xəstə yatdığı ağır günlərdəki mənəvi və maddi dəstəyinizi, müalicə üçün Moskvaya yola salınmasındakı köməyinizi heç vaxt unutmayacağıq. Bu təkcə Vaqif Əliyevə deyil, eyni zamanda uzun illər öz peşəkarlığı, bacarığı, qabliyyəti ilə rayon mətbuatını şərəfləndirən, ona şöhrət qazandıran bir insana verdiyiniz dəyər idi. Bunu biz bu gün də böyük minnətdarlıq hissi ilə xatırlayaraq deyirik: Sağ olun, Bahəddin müəllim, "Gündoğar"ı doğma qəzetiniz kimi sevib dəyərləndirdiyinizə, abunəsini daim diqqətinizdə saxladığınıza görə.

Elə cavanlığınızdan müdrik, uzaqgörən idiniz. Böyük Yaradan bunu Sizdən əsirgəməmişdi. Ömrün 70 illik zirvəsini aşandan sonra yəqin bir az da işıqlanacaq, nurlanacaqsınız. Xoş duyğularla yaşadığınız belə əziz, unudulmaz günlərdə biz də Sizi — yaxın dostumuzu, təəssübkeşimizi qarşıdan gələn yubileyiniz münasibətilə ürəkdən təbrik edirik, Sizə möhkəm can sağlığı diləyirik. Arzu edirik ki, Allahın verdiyi ömrün qalan hissəsini də sağlam canla yaşayasınız, həmişə yanımızda, neftçalalılarla birlikdə olasınız.

"GÜNDOĞAR"

Koronavirus can almaqda davam edir

Ona görə yenə də maska taxmaqda davam edin, məsafə saxlayın, digər karantin qaydalarını gözləyin. Bununla siz həm özünüzü, həm də ailənizi, yaxınlarınızı, doğmalarınızı koronavirus bəlasından qorumuş olarsınız.

Unutmayın ki, pandemiya ötüb keçəndən sonra həyat yenidən öz axarına qayıdacaq, amma səhlənkarlığımız, laqeydliyimiz üzündən itirdiyimiz əzizlərimizi, doğmalarımızı heç vaxt geri qaytara bilməyəcəyik.

Unutsaq, unudularıq

O ƏSL ZİYALI, VƏTƏNDAŞ İDİ

Əcəlin daş üzü, buz nəfəsi bu günlərdə rayonun ən nüfuzlu ziyalılarından birini, gözəl insanı, əziz dostumuzu, həmkarımızı, əməl və amaldaşımızı, ağıllı məsləhətçimizi gözlənilmədən sıralarımızdan qopararaq aparmışdır. Arif Əlinağı oğlu Nağıyevin qəflətən dünyasını dəyişməsi xəbərinə heç kəs inanmadı, inanmaq istəmədi. Ancaq bu həqiqət idi. Dəfnə gələnlərin hamısı gözü yaşlı, üzü kədərli, ürəkləri nisgilli idi.

Qəfil gələn əcəl aman vermədi ki, Arif müəllim doğmaları, tanış və dostları ilə bir doyunca danışıb söhbət etsin, tövsiyələrini desin, yarımçıq qalan işlərindən söhbət açsın. Arif müəllimi mən də çox yaxşı tanıyırdım. Orta məktəbdə ona Azərbaycan dili və ədəbiyyatdan dərs demişdim. Məktəbdə nümunəvi şagirdlərimizdən biri idi. Müəllimlər də, şagird yoldaşları da çox istəyirdilər onu.

Zəhməti, bilik və bacarığı, təşkilatçılığı pillə-pillə ucaltmışdı onu el gözündə, cəmiyyət arasında. Nümunəvi davranışı, əxlaqı, tərbiyəsi ilə seçilirdi insanlar arasında. Rəhbər işçi kimi uzun müddət rayon icra hakimiyyəti başçısının birinci müavini, rayon icraiyyə komitəsi sədrinin müavini işləmiş, bir sıra məsul vəzifələrdə çalışmışdı. Hər yerdə də ona etibar edilən etimadı layiqincə doğrultmuşdu. Özünəməxsus xoş iz qoymuşdu çalışdığı ünvanlarda. Elə buna görə də ünsiyyətdə, təmasda olduğu insanlar məhəbbətlə xatırlayırlar onu.

Arif Nağıyev həm də uzun illər rayonumuzdan Milli Məclisə deputat seçilən Arif Rəhimzadənin Neftçalada köməkçisi olmuşdu. O, seçicilərlə, rayon sakinləri ilə əlaqələrin möhkəmlənməsi, ünsiyyətin artması üçün əlindən gələni əsirgəməmişdi. Çalımışdı ki, deputata olunan müraciətlər öz həllini həmişə vaxtında tapsın, çətinliklər, problemlər həll edilsin.

Biz Arif müəllimlə tez-tez görüşərdik. Görüşə bilməyəndə telefonla danışardıq, söhbətləşərdik. Bəzən mübahisələrimiz də olurdu. Onu çox vaxt Təhsil Muzeyinə dəvət edir, daim söhbətlərimizi, bu və ya digər məsələ ilə bağlı müzakirələrimizi burada aparardıq. Aramızda xeyli yaş fərqi olsa da, onun fikirləri ilə çox vaxt razılaşmalı olurdum. Muzeydə keçirdiyimiz elə bir tədbir olmurdu ki, Arif müəllim orada iştirak etməsin. Maraqlı çıxışları ilə hamının diqqətini özünə cəlb edirdi. N.Gnəcəvi, M.F.Axundzadə ilə bağlı tədbirlərimizdə o çoxlarına məlum olmayan yeni faktları dilə gətirməklə bir şirinlik yaratmışdı.

Arif müəllim uşaqları da çox sevirdi. Rəhmətlik danışırdı ki, hər gün səhər tezdən işə gələndə küçəmizdə uşaqları maşına mindirir, məktəbin yolunda düşürürəm. Uşaqlarla yaman dostlaşmışam deyirdi. Onlar hər gün küçəmizdə məni xorla "Salam, Arif əmi" deyə salamlayırlar. Bu məndə xoş hisslər doğurur.

Deməyə, danışmağa o qədər sözüm, söhbətim var ki, heç bilmirəm hansından danışım, hansını deyim. İçimdə bir boşluq yaranıb. Allah səni qəni-qəni rəhmət eləsin, məzarın nurla dolsun, məkanın cənnət olsun, Arif müəllim.

Tədbir MAHMUDOV,
Əməkdar müəllim

KİTABLARINIZ YAŞADACAQ SİZİ

Həmkarımız İbrahim Nurlunun ölüm xəbərini eşidəndə bu xəbərin doğruluğuna inana bilmədik. İnana bilmədik ki, bu qədər nikbin, həyatsevər bir adam da gözlərini bu dünyaya əbədi yumarmış.

İbrahim Güləhməd oğlu Nuriyev 1941-ci il aprel ayının 26-da Neftçala rayonunun Böyük Oriyat kəndində anadan olmuş, 1947-ci ildə bu kənddəki yeddiillik məktəbin 1-ci sinfinə qəbul edilmişdi. Kiçik yaşlarından fəallığı, təşəbbüskarlığı ilə fərqlənən İ.Nurlu dərslərini yaxşı oxumaqla yanaşı müxtəlif dərnəklərdə də fəal iştirak etmiş, ev işlərində ailənin yaxın köməkçisi olmuşdu. 1957-ci ildə orta təhsilini başa vuran kimi Z.O.Qoltuq kənd yeddiillik (indiki Neftçala şəhər 2 saylı tam orta) məktəbində kitabxanaçı, şəhər internat məktəbində pioner baş dəstə rəhbəri, 1958-ci ildə qiyabi yolla Azərbaycan Dövlət Universitetinin Jurnalistika şöbəsinə qəbul olunduqdan sonra isə həmin internat məktəbdə müəllim işləmişdi. Ali təhsilini jurnalist kimi başa vursa da, Neftçala müstəqil rayon olmadığına, burada qəzet çap edilmədiyinə görə 1973-cü ilə qədər pedaqoji fəaliyyətlə məşğul olmuş, müxtəlif kənd və qəsəbə



məktəblərində müəllimlik etmişdi. 1973-cü ildə Neftçala müstəqil rayon kimi təşkil edildikdən, burada ayrıca qəzet çap olunmağa başlayandan sonra isə o öz ixtisasına qayıtmış, bizimlə iş yoldaşı olmuşdu.

İbrahim müəllim rayon mətbuatının bünövrəsini qoyanlarından biri idi. 1973-cü ildə rayonda "Oktyabr bayrağı" (indiki "Gündoğar") qəzeti çap olunanda özünün fəallığı ilə diqqəti cəlb etməyə başlamışdı. Redaksiyanın və mətbəənin qurulmasında İbrahim müəllimin zəhməti böyük olmuşdu. Məsul katib kimi əsas işi qəzetə tərtibat vermək olsa da, gözəl publisistik yazıları ilə də fərqlənir, çap maşınlarının, linotip dəzgahlarının sıradan çıxan hissələrinin təmirində yaxından iştirak edirdi. Bu onun qaynar təbiəti ilə bağlı idi. Heç vaxt heç bir işə kənarda dayanıb seyrçi kimi tamaşa edə bilmirdi, onu öyrənməyə çalışırdı.

İ.Nurlu 1992-ci ilə qədər bizimlə bir kollektivdə çalışdı. 1992-ci ildən etibarən isə mətbuat işindən ayrılaraq yenidən pedaqoji fəaliyyətə keçdi, bir vaxtlar çalışdığı Həsənabad qəsəbə tam orta məktəbində Azərbaycan dili və ədəbiyyat fənnindən dərs deməyə başladı. O, qəzet işindən ayrılsa da, yazıb yaratmaqdan, publisistika ilə məşğul olmaqdan ayrılmadı. Əksinə, elə bil onun publisistik fəaliyyətinin yeni, daha kamil bir dövrü başladı. Bir-birinin ardınca bir-birindən dəyərli kitablarını yazıb çap etdirdi. Rayonda, rayondan kənar yerlərdə yaxşı tanınan, özünə görə hörmət, nüfuz, ad-san qazanan elə bir neftçalalı qalmadı ki, gedib onunla görüşməsin, haqqında məlumat toplamasın, kitablarında onların barəsində yazmasın. İbrahim Nurlunun bir-birindən dəyərli əsərlərində təkcə rayonumuzun tanınmış adamlarının həyat və fəaliyyəti yox, Neftçalanın bütün tarixi keçmişi, dünəni, bu günü, uğurları, nailiyyətləri, ədəbi, mədəni mühiti tam dolğunluğu ilə əhatə olunur, şirin bir dillə təsvir edilir.

Ölüm haqdır, bu dünyaya gələnlərin hamısı nə vaxtsa hökmən köçünü yığıb bu dünyadan gedəcək. Amma özünüzdən əvvəlki əksər tanınmış neftçalalıları kitablarınızda yaşadıb əbədiləşdirdiyiniz üçün özünüz də o stolüstü ensiklopedik kitablarınızla, o kitablarda əhatə etdiyiniz şəxslərlə birlikdə oxucuların, neftçalalıların ürəklərində, qəlblərində həmişə qalacaq, əbədi yaşayacaqsınız. Məzarınızda rahat uyuyun, Allah sizə qəni-qəni rəhmət eləsin.

"GÜNDOĞAR"

SİQARETƏ YOX DEMƏYİ BACARAQ

Ümumdünya Səhiyyə Təşkilatı siqareti dünyanın ən böyük sağlamlıq problemi elan edib. Statistik göstəricilərə görə hər il 5 milyondan çox insan bu səbəbdən dünyasını dəyişir. Hesablamalar göstərir ki, lazımi tədbirlər görülməzsə, bu göstərici yaxın 20 il ərzində 10 milyona çatacaq. "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" Azərbaycan Respublikasının 1 dekabr 2017-ci il tarixli 887-VQ nömrəli qanunu da məhz bu ağır bəlaya qarşı mübarizəni daha da gücləndirmək məqsədilə qəbul olunmuşdur.

Məsələyə sırf tibbi aspektdən yanaşaq. Siqaretin tərkibi əsasən nikotindən ibarətdir. Bir ədəd siqaretdən orqanizm 1-2 mq nikotin mənimsəyir. Siqaretin tərkibinə daxil olan 4000 kimyəvi maddədən biri olan nikotin daha çox beyinə təsir göstərərək, həyati funksiyaları tənzimləyən mərkəzlərdə dofamin sintezini artırır. Həzz və doyğunluq hissi də bununla bağlıdır. Qeyd edək ki, insanda fiziki asılılıq yaradan narkotik maddələrdə (heroin, kokain) məhz həmin mərkəzlərə təsir göstərir.

Siqaretin orqanizmə zərərli təsirini anlamaq üçün tərkibindəki zəhərli maddələrə nəzər salaq: bura kanserogen (xərçəng törədən) maddələr — hidrogen-sionid, arsen, amoniyak, propilen, qlikol və başqaları aiddir ki, bunlardan da məsələn, sionid birbaşa öldürücü zəhərdlir.

Siqaret ölümə səbəb olmaqla yanaşı, bir sıra orqan və sistemlərdə də ciddi pozğunluqlar törədir — diş və diş əti xəstəlikləri, qulaq-burun-boğaz problemləri, ürək-damar sistemi xəstəlikləri, damar divarı pozğunluqları, mədə xəstəlikləri, impotesiya və başqa problemlərə yol açır.

Siqaretin qadın orqanizminə təsirləri daha qabarıq şəkildə özünü büruzə verir. Hamilə qadının siqaret çəkməsi uşağın ölü doğulması və ya zehni inkişafdan qalması ilə nəticələnir. Gənc yaşlarından siqaret aludəçisi olan hamilə qadınlarda ən yaxşı halda erkən doğuş olur ki, bu da zəif uşaqların dünyaya gəlməsinə səbəb olur.

Siqaretin zərərlərini dərk edib, amma çəkməyə davam edən insanlar çox zaman səthi çəkdiyini deyərək, özlərinə təsəlli verməyə çalışırlar. Lakin bu doğru yanaşma deyil. Siqaretin zərərli təsirləri tüstünün ağ ciyərlərə çatmasından sonra deyil, dodaqlardan başlayır. Professor Dr. Tevfiq Özlü bu sahədə apardığı araşdırmalarının nəticələrini belə izah edir: "Dodaq, dil, yanaq, udlaq xərçəngləri, diş əti xəstəlikləri, faringit, sinusit, badamcıq və orta qulaq iltihabı kimi yuxarı tənəffüs yolları ilə əlaqədar olan xəstəliklər, katarakta kimi göz xəstəlikləri üçün siqaretin dodaq aludəçisi olmaq kifayətdir. Hətta siqareti yandırmadan ağızda tutmaq və ya tütün çeynəmək dil və dodaq xərçənginə səbəb olur. Bu baxımdan siqaret istifadəçisi olan hər kəs böyük təhlükə qarşısındadır. Zərərsiz siqaret istifadəsi mümkün deyil."

Nikotin asılılığından qurtulmaq üçün müxtəlif tibbi müalicə üsulları olsa da, biz yazımızda problemin kütləviliyini nəzərə alaraq hər kəsin fərdi qaydada bəhrələnə biləcəyi yollardan danışacağıq. İnsanın həyatında stress faktorlarının mövcudluğu, siqareti tərgitməsini çətinləşdirir. Odur ki, depressiya, alkoqol və digər asılılıqları ya siqareti tərgitməyə başlamazdan əvvəl, ya da eyni zamanda müalicə etmək lazımdır. Siqaret tərgitmək istəyənlər çox vaxt bir dəfəyə atmağı bacarmadıqda, cəhdlərinin həmişə uğursuzluqla nəticələnəcəyini düşünürlər. Amma bütün digər asılılıqlar kimi bu da təxminən 5-7 cəhddən sonra tamamilə atıla bilər və hər uğursuz cəhd insana sonrakı dəfə nələrə diqqət etmək lazım olduğunu öyrədir. Siqaretə təkrar başlamaq adətən problemlərin çoxluğu, gərginlik səbəbindən ola bilir ki, bu zaman orqanizmdə nikotinin rahatladıcı təsirinə ehtiyac yaranır. Bunu idman, qaçış, təmiz havada gəzinti kimi fiziki vasitələrlə, eyni zamanda, dərindən nəfəsalma hərəkətləri, ılıq duş qəbul etmək, musiqi dinləməklə və digər yaxşı vərdişlərlə əvəz etmək olar. Asılılıqla mübarizə aparmağın ilkin şərti heç vaxt ruhdan düşməməkdir. Özünüzə və uğur qazanacağınıza inam və eyni zamanda sizə kömək edə biləcək sağlam çevrə yaratmağınız digər vacib şərtlərdəndir.

Bu da bir mübarizədir. Böyük mübarizəyə başlamazdan öncə içinizdəki iradəni sınayın və bu asılılıqdan qurtulun. Özünə qalib gələn insan hər şeyə qadirdir.

Xalid MƏMMƏDOV,
rayon gigiyena və epidemiologiya mərkəzinin direktoru

Şahmat üzrə könüllülər kuboku

COVİD-19 pandemiyası dövründə yaşamağımıza baxmayaraq rayon gənclər və idman idarəsi işləprini, tədbirlərini Nazirlər Kbineti yanında fəaliyyət göstərən Operativ Qərargahın müəyyənləşdirdiyi karantin qaydalarına uyğun şəkildə davam etdirməkdədir. Avqustun 27-28-də rayon uşaq gənclər idman şahmat məktəbinin həyətində, açıq havada "Azərbaycan İdman Könüllüləri" İctimai Birliyinin dəstəyi və Neftçala Rayon Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə "Şahmat üzrə Könüllülər Kuboku" yarışı da maraqla qarşılanmışdır.

Yarışda iştirak edən könüllülərimiz və gənclərimiz maraqlı və məntiqli oyun nümayiş etdirərək öz qüvvələrini sınamışlar. Ən güclü olduqlarını sübut edən Aytən Səfərova birinci, Əlihüseyn Əliyev ikinci, İsmayıl Şirəliyev üçüncü yerləri tutmağa nail olmuşlar. Fərid Xankişiyev isə oyunlardakı fəal iştirakına görə həvəsləndirici mükafata layiq görülmüşdür. Qaliblərə "Azərbaycan İdman Könüllüləri" İctimai Birliyinin və Neftçala rayon Gənclər və İdman İdarəsinin birgə imzaladıqları diplomlar və hədiyyələr təqdim olunmuşdur.

Sonda rayon gənclər və idman idarəsinin rəhbərliyi "Şahmat üzrə Könüllülər Kuboku"nun keçirilməsinə göstərdiyi dəstəyə görə Neftçala Rayon Təhsil Şöbəsinə, rayon uşaq gənclər idman şahmat məktəbinə təşəkkürünü bildirmişdir.

***

Gənclər və idman idarəsinin əməkdaşları "Karantin qaydalarına biganə qalan vətəndaşlar xalqın genefonduna zərbə vururlar" şüarı altında "Sağlam qal, məsafə saxla, tibbi maska tax" adlı təbliğat-maarifləndirici aksiyanı da uğurla davam etdirirlər.

Aksiya çərçivəsində qapalı məkanlarda, xüsusən ictimai iaşə və ticarət obyektlərində pandemiya dövründəki davranış qaydaları barədə ictimai maarifləndirmə işləri aparılır. Bununla yanaşı tədbir zamanı koronavirus infeksiyasının ölkəmizdə yayılması və onun törədə biləcəyi fəsadların qarşısının alınması istiqamətində Operativ Qərargah tərəfindən qoyulan qadağa və tələbləri özündə əks etdirən bukletlər paylanmışdır.

Növbəti humanist aksiya

Sərt karantin qaydalarının tətbiq olunduğu dövrdə ayrı-ayrı kateqoriyadan olan insanların köməyə, qayğı və diqqətə daha çox ehtiyacları olub. Müxtəlif təşkilatlar, qurumlar, imkanlı şəxslər tərəfindən bu dövrdə rayonumuza göndərilən yardımlar da bununla əlaqədardır.

Bir neçə gün bundan qabaq "PAŞA Holding" MMC-nin təşkilatçılığı, Neftçala Rayon İcra Hakimiyyətinin dəstəyi ilə Neftçala şəhərində, qəsəbə və kəndlərdə 300 ailəyə (tənha yaşlılara, şəhid ailələrinə və aztəminatlı ailələrə) ərzaq yardımlarının verilməsi də həmin humanist aksiyaların davamıdır. Yardımlar ünvanlarına cəmiyyətin əməkdaşları və rayonun könüllüləri tərəfindən çatdırılmışdır. Hamısı da yerində, vaxtında.

Keçirilən belə sosial aksiyalar ölkəmizdə koronavirus (COVİD-19) pandemiyası dövründə milli həmrəyliyin güclənməsinin növbəti təzahürüdür. Yaşlı, ahıl insanların, şəhid ailələrinin və aztəminatlı ailələrin rifahına yönələn bu dəstək dövlətin bu sahədə apardığı siyasətə bir dəstək oldu.

İLK MƏHƏBBƏT

(*Ömür-gün yoldaşıma*)

Gözlərindən işıq düşdü gözümə,
Ürəyimdə ilk məhəbbət oyandı.
Ha çalışdım bu sevgini gizlədim,
Xəbər tutdum, bütün kəndə əyandı.

Məktub yazdım, əhval tutaq, dərdləşək,
Hissimizi, duyğumuzu bölüşək,
İstədik ki, xəlvəti bir görüşək —
Mərdimazar qarşımızda dayandı.

Yaddan çıxmaz sənlə bağlı günlərim,
Tez solardı sənsiz açan güllərim.
Yanağına toxunanda əllərim
Barmaqlarım atəşinə boyandı.

İlk məhəbbət çıxmaz heç vaxt yadımdan,
Əl çəkmədim qismətimdən, adından,
Eşqimizin alovundan, odundan
Həyat adlı övladımız yarandı.

Nazim SAYILOV

ƏMDK yanında DƏDRX-nin 13 saylı Şirvan Ərazi İdarəsi tərəfindən Mürsəqulu kənd sakini Eldar Gülbala oğlu Mənəfova verilən Texniki Pasport (fərdi yaşayış evinin reyestr nömrəsi 807013011426 -10301, çıxarış nömrəsi 1464742, tərtib edilmə tarixi 27 mart 2019-cu il, inventar nömrəsi 807-10/-495) itdiyinə görə etibarsız sayılır.

Bakı şəhəri, Nizami rayonu, Çobanzadə küçəsi 23 qeydiyyatında olan Aqşin Abdulhəsən oğlu İbrahimovun adına Xıllı qəsəbə 2 saylı tam orta məktəbi tərəfindən verilmiş 2 iyul 2015-ci il tarixli, AN№ 452787 nömrəli attestat itdiyinə görə etibarsız sayılır.

Neftçala şəhər sakini Qurban Saday oğlu Soltanovun adına verilmiş JN-538A (KOD: 80701004) nömrəli, 24 may 2006-cı il tarixli torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə itdiyinə görə etibarsız sayılır.

ALLAH RƏHMƏT ELƏSİN!

"Gündoğar" qəzeti redaksiyasının kollektivi rayon suvarma sistemləri idarəsinin rəisi Elçin Əsədova, yaxın qohumu

YADİGAR XƏLİLOVUN

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Baş redaktor
H.Ə.ƏSƏDOV

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeydə alınmışdır. Şəhadətnamə №268

Ünvanımız:
Az 4700, Neftçala şəhəri, H.Əliyev prospekti 38,
Telefon: 3-44-03
Mobil: (050) 333-72-30, (055) 669-56-71
H/H: №AZ95AIIB33080019446400258164
VÖİN: 6500044671

Qəzet "GÜNDOĞAR"ın kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərindəki "BZ" mətbəəsində çap olunmuşdur.

Müəllifin mövqeyi ilə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Tiraj: 450 Sifariş № 18
Bir nömrənin qiyməti: 40 qəpik.